QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 225 (5456) 8 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Bölgələrdə aparılan uğurlu inkişaf prosesi dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev Quba rayonuna səfər edib*

Səh 2




Naxçıvanın inkişaf modeli bölgələrə nümunədir



8

Entoni Qrin: "Oksford Universiteti professor Nərgiz Paşayeva ilə şəffaf, ikitərəfli inam və etimad əsasında qurulan əməkdaşlığı daimi davam etdirmək qərarına gəlib"



7

Beynəlxalq birlik hara gedir?



7

Rəcəb Tayyib Ərdoğan: Tramp BMT-nin Qüds barədə qərarını tapdaladı



12

Böyük Britaniyanın ticarət naziri Azərbaycana səfərə gəlir



11

Şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi üzrə səyyar xidmətlər davam etdirilir



12

13

Ermənistan reallığı: iqtisadi çöküş və sürətli inflyasiya



7

"Azerspace-2" gələn ilin əvvəlində orbitə çıxarılacaq



16

Çempionlar Liqasında 1/8 finalçılar müəyyənləşib



# Bölgələrdə aparılan uğurlu inkişaf prosesi dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Quba rayonuna səfər edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonuna səfərə gedərkən Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-202 kilometrlik hissəsində tikiləcək yeni yolun təməlqoyma mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, "Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına avtomobil yolunun layihəsi barədə məlumat verdi.**

Bildirildi ki, layihə çərçivəsində Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən başlayaraq, Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən Gəndob yaşayış məntəqəsinə qədər 97 kilometr uzunluğunda, oradan da Rusiya Federasiyası sərhədinə doğru 22 kilometr yeni yolun tikintisi nəzərdə tutulur. Beləliklə, dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 119 kilometr, eni 15 metr olacaq. 119-cu kilometrdən sərhədə doğru 38 kilometr uzunluğunda yeni yolun tikintisi isə davam edir. Yolun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq Gəndob yaşayış məntəqəsinə qədər olan hissəsinin 1-ci texniki dərəcəyə uyğun tikilməsi nəzərdə tutulur. Yola hər hansı maneənin çıxmasının qarşısını almaq üçün körpü və birləşmələr inşa ediləcək, yol hər iki tərəfdən çəpərlənəcək. Əsas qəsəbə və rayon mərkəzlərindən magistrala giriş-çıxış yolları çəkiləcək. Bu işlər tam başa çatdıqdan sonra yolun ümumi uzunluğunun 157 kilometr təşkil edəcəyi gözlənilir. Layihələndirilən magistral yol əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir. Tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi və səsboğucu qurğuların quraşdırılması nəzərdə tutulur.



Qeyd edək ki, 2005-ci ildə Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Sazişə qoşulub. Bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradır. Dəhlizin Azərbaycan ərazisindən keçən avtomobil yollarının uzunluğu 520 kilometrdir. Bunlardan, Bakı-Quba-Rusiya sərhədi istiqamətində yolun uzunluğu 208 kilometr, Bakı-Ələt-Astara yolunun uzunluğu isə 312 kilometr təşkil edir. Qeyd edilən mövcud yolların yaşayış məntəqələrindən keçməsi sürət həddinin aşağı, vaxt sərfiyyatının çox olmasına səbəb olur. Yaşayış məntəqələrindən keçmədən, mövcud yollara alternativ yolların tikintisi magistral yollarda nəqliyyatın sıxlığını aradan qaldırmaq, ölkədə avtomobil yolları şəbəkəsinin müasirləşdirilməsi və genişləndirilməsi, avtomobil yolları istifadəçilərinə yüksək xidmət göstərilməsi, yollarda yüksək sürət rejiminin və təhlükəsizlik tələblərinin təmin edilməsi məqsədi daşıyır. Belə ki, yüksək standartlara və normativlərə uyğun olan avtomobil yollarında maksimal sürət həddi olacaq, bu yollarda nəqliyyat vasitələri daha rahat və təhlükəsiz hərəkət edə biləcək. Sonra dövlətimizin başçısı yeni yolun təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular. Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.

**Ardı Səh. 3**



# Bölgələrdə aparılan uğurlu inkişaf prosesi dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev Quba rayonuna səfər edib*

Əvvəli Səh. 2

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba "ASAN həyat" Kompleksinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər.



Qeyd edək ki, dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN xidmət" sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Əgər əvvəllər "ASAN xidmət" mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, vətəndaşlara 250-yə yaxın müxtəlif xidmətlər göstərilir. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.



Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyni adlı qurum "Asan Khedmat" təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya və ISESCO təşkilatı ilə əməkdaşlığa dair "Anlaşma Memorandumu" imzalanıb. 2014-cü ildə "ASAN xidmət" İSO 9001:2008 və OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. "ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub. Bu faktların özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var.

Prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına Quba "ASAN həyat" Kompleksi barədə ətraflı məlumat verdilər. Bildirildi ki, bu kompleks Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 12-ci Mərkəzidir. Şəhərin Heydər Əliyev prospektində yerləşən, öz möhtəşəmliyi ilə seçilən Quba regional "ASAN həyat" Kompleksinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Kompleksin tikintisinə bu ilin əvvəlində başlanılıb. Kompleks 4 mərtəbəli inzibati binadan və 6 ictimai iaşə obyektindən ibarətdir. Burada "ASAN xidmət" Mərkəzi, "ASAN təlim" Mərkəzi, "ABAD" Mərkəzi, "ABAD" Məktəbi yaradılıb.

Dövlətimizin başçısı mərkəzlə tanış oldu. Kompleksin "ASAN xidmət" Mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcək. Mərkəzdə çalışacaq əməkdaşların sayı 170, könüllülərin sayı isə 45 nəfərdir. Quba "ASAN xidmət" Mərkəzi Quba, Qusar, Xaçmaz və Şabran rayonları ərazisində qeydiyyatda olan, ümumilikdə, 500 minə yaxın vətəndaşa xidmət göstərəcək.

Dövlətimizin başçısı Quba "ASAN xidmət" Mərkəzini işə saldı.



Ardı Səh. 4

# Bölgələrdə aparılan uğurlu inkişaf prosesi dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Quba rayonuna səfər edib*







Əvvəli Səh. 3

Bildirildi ki, bu günə kimi "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 18 milyon 600 minə çatıb. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən təqribən 1 milyon 250 min vətəndaşa səyyar formada xidmət göstərilib. Prezident İlham Əliyevə "Ready 2.0" avadanlığı haqqında məlumat verildi. Bu avadanlıq "ASAN xidmət" mərkəzlərində hazır sənədlərin vətəndaşlara avtomatlaşdırılmış qaydada verilməsi üçün hazırlanmış cihazın yeni versiyasıdır. Mərkəzdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə yaradılıb. Burada "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən xidmətlər təqdim olunacaq. Qeyd edildi ki, paytaxt Bakıda fəaliyyət göstərən iki "ASAN kommunal" xidmətində bu günədək 217 min vətəndaş müraciəti qeydə alınıb.

Mərkəzlə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni layihələr barədə də məlumat verildi. Bildirildi ki, "ASAN viza 2.0" sistemi Azərbaycan vətəndaşları üçün xarici ölkələrə səfər vizalarının alınmasına elektron müraciətin təmin edilməsi üçün yaradılıb.

Diqqətə çatdırıldı ki, yeni layihələrdən biri də doğum evlərində körpələrə fərdi identifikasiya nömrələrinin verilməsinin təmin edilməsi üçün aparılan inteqrasiya işləridir. "Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu"nun təqdimatı zamanı İKT sahəsində ixtisaslaşmış 10 şirkəti özündə birləşdirən bu qurumun fəaliyyət istiqamətləri və ölkəmizin intellektual məhsullarının beynəlxalq bazara çıxarılması ilə bağlı planlar barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, maliyyə xidmətlərinin "one-stop shop" prinsipi ilə təqdim edilməsi üçün isə "ASAN finance" elektron portalının yaradılması nəzərdə tutulur. Dövlətimizin başçısına "Tikilməkdə olan çoxmənzilli yaşayış binalarının və həmin tikinti obyektlərinin inşası ilə məşğul olan fiziki və hüquqi şəxslərin Elektron Reyestri" barədə də məlumat verildi. Burada reyestrin funksional imkanları, fəaliyyəti və tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı tikinti şirkətlərində səyyar monitorinqlərin keçirilməsinin nəticələri əks olunub. Bildirildi ki, 2018-ci ildə Şəki və İmişli rayonlarında "ASAN həyat" komplekslərinin istifadəyə verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan digər "ASAN xidmət" mərkəzlərinin layihələri də təqdim olundu.

Qeyd edək ki, "ASAN həyat" konsepsiyası "ASAN xidmət" Mərkəzi ilə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. "ASAN həyat" Kompleksi vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir. Quba "ASAN həyat" Kompleksinin kinoteatrında Azərbaycan filmləri ilə yanaşı, xarici ölkələrin filmləri də nümayiş etdiriləcək. "ASAN təlim" Mərkəzində isə "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən əməkdaşlara, digər dövlət orqanları və funksional xidmət əməkdaşlarına "ASAN" təcrübəsi əsasında formalaşmış vətəndaş axınının idarə olunması, etik davranış və digər təlimlərin keçirilməsi təmin olunacaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin "ABAD" Mərkəzində də oldular.

"ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev məlumat verdi ki, kompleksdəki "ABAD" Mərkəzinin əsas məqsədi şimal regionunda yeni ailə brendləri yaratmaq, ailə təsərrüfatlarının məhsullarının daxili və xarici bazarda satışını təşkil etmək, özünüməşğulluq proqramının icrasına dəstək göstərməkdir. Sonra dövlətimizin başçısı "ABAD"çı ailələrin hazırladıqları yeni məhsullara baxdı.

Qeyd edildi ki, "ABAD" publik hüquqi şəxs tərəfindən Azərbaycanın 19 şəhər və rayonundan ümumilikdə sənətkarlıqla bağlı 143, kənd təsərrüfatı sahəsi üzrə isə 24 ailə seçilib. Bu günədək Masallıda 6, Balakəndə isə 12 ailəyə monoblok-konteyner şəklində zəruri istehsal avadanlıqları təqdim olunub. "ABAD"a qoşulan ailələrin məhsullarının sərgi-satışını həyata keçirmək üçün "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisi, Heydər Əliyev Beynəlxalq Hava Limanı, Bakı Dəmir Yolu Vağzalı, Şamaxının Dəmirçi kəndində "ABAD" sərgi-satış mərkəzləri yaradılıb. Hazırda "ABAD" sərgi-satış mərkəzlərində 167 "ABAD"çı ailənin ümumilikdə 1900-dək çeşiddə əl işləri, 25 çeşiddə ərzaq məhsulları təqdim olunur.

"ABAD" Məktəbində isə xalçaçılıq, tətbiqi incəsənət və nəzəri kurslar olmaqla, üç istiqamət üzrə dərslər keçiriləcək. Məktəbdə şimal regionunda dekorativ-tətbiqi xalq sənətkarlığı ilə məşğul olan "ABAD"çı ailələrin sayının artırılması istiqamətində iş aparılacaq, təlimlər keçiriləcək, o cümlədən ərzaq məhsullarının istehsalı ilə məşğul olan ailə təsərrüfatları üçün biznes-planlaşdırma, marketinq, maliyyə-mühasibat kimi sahələrdə nəzəri kurslar təşkil olunacaq. Quba "ASAN həyat" Kompleksinin ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb. Ümumi sahəsi 1,58 hektar olan kompleksin ərazisində fəvvarə, avtomobillər və avtobuslar üçün dayanacaq tikilib, park və uşaq oyun meydançası yaradılıb. Prezident İlham Əliyev Quba "ASAN həyat" Kompleksinin əməkdaşları ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyev çıxışında diqqətə çatdırıb ki, Qubada "ASAN xidmət" Mərkəzinin yaradılması çox gözəl hadisədir. Bu, sayca 12-ci mərkəzdir. Mərkəzlərdən 5-i Bakıda yaradılıb, 7-si də Quba daxil olmaqla, digər bölgələrdə. "ASAN xidmət" artıq beş ildir ki, fəaliyyət göstərir:

"Beş il ərzində Azərbaycan xalqının rəğbətini qazana bilmişdir. Bu illər ərzində "ASAN xidmət" mərkəzlərinə 18 milyondan çox müraciət daxil olmuşdur və "ASAN xidmət"in fəaliyyətini bəyənmə əmsalı 100 faizə yaxındır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, doğrudan da ictimai xidmətlər sahəsində böyük bir inqilabdır. "ASAN xidmət" Azərbaycan brendidir, Azərbaycanın intellektual məhsuludur. O məhsul ki, bu gün biz onu xaricə ixrac edirik. Bir neçə ölkə "ASAN xidmət"lə maraqlanır. Bizim "ASAN xidmət" bir neçə ölkə ilə müvafiq sənədlər imzalayıb və artıq bir neçə ölkədə "ASAN xidmət" mərkəzləri yaradılır.

Ardı Səh. 5

# Bölgələrdə aparılan uğurlu inkişaf prosesi dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Quba rayonuna səfər edib*

Əvvəli Səh. 4

“ASAN xidmət” beynəlxalq təşkilatlar tərəfindən də çox yüksək qiymətə layiq görülüb. BMT ictimai xidmətlər sahəsində “ASAN xidmət”ə yüksək mükafat vermişdir. Bir neçə mötəbər beynəlxalq təşkilat artıq “ASAN xidmət”lə uğurlu əməkdaşlıq edir.

Bildiyiniz kimi, stasionar mərkəzlərlə yanaşı, 10 avtobus səyyar xidmət göstərir, “ASAN qatar” xidməti artıq fəaliyyətə başlayıbdır. Əlbəttə, biz çalışmalıyıq ki, gələcək illərdə ölkəmizin hər bir yerində “ASAN xidmət” mərkəzləri olsun. İstəyirəm bizim ictimaiyyət onu da bilsin ki, gələn il üç “ASAN xidmət” Mərkəzinin açılışı nəzərdə tutulur - Mingəçevir, Şəki və İmişli şəhərlərində. Eyni zamanda, gələn il 5 mərkəzin tikintisinə start veriləcəkdir və 2019-cu ildə onların açılışı nəzərdə tutulur. Biz istəyirik ki, 2019-cu ilin sonuna qədər ölkəmizdə 20 “ASAN xidmət” Mərkəzi fəaliyyət göstərsin. Beləliklə, “ASAN” bütün bölgələrə gəlir, hər bir vətəndaşa çox gözəl xidmət göstərir. “ASAN”ın öz davranış qaydaları var.

Şadam ki, “ASAN”da çalışanların mütləq əksəriyyəti gənclərdir və bu mərkəzdə 170 gənc işlə təmin olunubdur, 40-dan çox könüllü fəaliyyət göstərəcək. Beş il ərzində 10 mindən çox könüllü “ASAN xidmət”də fəaliyyət göstərmişdir. Yüzlərlə könüllü artıq işlə təmin olunubdur. Azərbaycanda könüllülər hərəkatına təkan verən də “ASAN” olmuşdur. Həmin könüllülər ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq yarışlarda - Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında böyük xidmətlər göstərmişlər. Ümumiyyətlə, könüllü olmaq çox böyük və şərəfli missiyadır. Bu, insanın niyyətini göstərir. Onu göstərir ki, insan öz vətəndaşlarına təmənnasız gözəl xidmət göstərməyə çalışır. Hesab edirəm ki, ölkəmizdə “ASAN xidmət”ə, o cümlədən könüllülərin fəaliyyətinə görə çox böyük rəğbət var.

Biz “ASAN”ın funksiyalarını genişləndiririk və mənim tərəfimdən müvafiq sərəncamlar imzalanmışdır. “ASAN xidmət” fəaliyyətə başlayanda sadəcə olaraq ictimai xidmətlər göstərirdi. Bu gün artıq “ASAN kommunal”, “ASAN viza”, “ABAD” mərkəzləri yaradılır. O sahələrdə ki, ölkə üçün prioritet sayılır. O sahələrdə ki, qüsurlar, nöqsanlar var.

Bilirsiniz ki, biz indi turizmin inkişafı ilə çox ciddi məşğuluq və bu ilin 10 ayında Azərbaycana gələn turistlərin sayı 20 faiz artmışdır. Keçən il 24 faiz artmışdır. Turistlərin gəlişini əngəlləyən əsas məsələ viza məsələsi idi. Mən əvvəlki dövrlərdə müvafiq dövlət qurumlarına dəfələrlə ciddi tapşırıqlar vermişdim ki, viza məsələsində çox ciddi islahatlar aparılmalıdır. Ancaq o islahatlar yarımçıq qalmışdı. Biz bu məsələni “ASAN”a tapşırdıq. Bu gün mənə məlumat verilir ki, bu ilin əvvəlindən 250 min xarici vətəndaş “ASAN viza”dan istifadə edərək ölkəmizə gəlmişdir. Kommunal ödənişlər sahəsində çox böyük problemlər, çatışmazlıqlar, qüsurlar olmuşdur. İndi “ASAN kommunal” çox gözəl xidmət göstərir. Kiçik biznesin, ailə biznesinin inkişafı ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət daşıyır. İnkişaf etmiş ölkələrin ümumi daxili məhsulunda əsas payı məhz kiçik və orta sahibkarlıq təşkil edir. Ona görə Azərbaycanda bu sahəyə təkan vermək üçün “ABAD” mərkəzləri yaradılır. O mərkəzlərin, fermerlərin, ailə təsərrüfatlarının məhsulu bu gün burada nümayiş etdirilir.

Bir müddət bundan əvvəl göstəriş vermişəm ki, biz qanunsuz məşğulluqla daha da səmərəli şəkildə mübarizə aparmalıyıq. Bu da bizi daim narahat edən məsələlərdən biri olmuşdur. Azərbaycanda işsizliklə bağlı görülən tədbirlər işsizliyi kəskin şəkildə aşağı salmışdır. Biz o vəziyyətlə üzləşdik ki, qanunsuz məşğulluq indi probleme çevrilib. İnsanlar işlə təmin edilir, amma heç bir qeydiyyata düşmür, vergisini vermir və gələcəkdə sosial təminatdan, pensiya təminatından da məhrum olurlar. Biz bu vəzifəni “ASAN”a tapşırandan sonra çox gözəl sistem yaradılıb. Tikintilərdə qanunsuz çalışan 5 min insan artıq cəmi bir neçə ay ərzində əmək müqavilələri əsasında işləməyə başlamışdır və beş min böyük rəqəmdir. Nəzərə alsaq ki, Bakıda gedən tikintilərdə 13 min insan çalışır, onlardan 5 mini qanunsuz işləyirdi. İndi onlar əmək müqavilələri bağlayıblar, dövlətə vergi ödəyəcəklər və gələcəkdə onların iş stajı olacaq, pensiya da alacaqlar. Yəni, harada ki, nöqsanlar, çatışmazlıqlar var “ASAN” bu məsələnin həllində ön cəbhədədir. Buna görə də mən əlbəttə ki, sizi və “ASAN xidmət”də fəaliyyət göstərən bütün işçiləri ürəkdən təbrik edirəm, onlara minnətdarlığımı bildirmək istəyirəm.

“ASAN xidmət” korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli vasitədir. Əlbəttə ki, bu bəla ilə bütün ölkələr mübarizə aparmalıdır, o cümlədən Azərbaycan. Biz mübarizə aparırıq, cəza tədbirləri, inzibati tədbirlər görülür. Amma ən çox effekt verən, ən səmərəli tədbirlər sistem xarakterli tədbirlərdir, institusional tədbirlərdir. “ASAN” bu məsələni də öz üzərinə götürüb. Bütün dövlət qurumlarında vətəndaşlara münasibət, öz işinə olan məsuliyyətli yanaşma “ASAN”dakı kimi olmalıdır. “ASAN” bu gün təkcə Azərbaycanı tanıtdıran və təbliğ edən milli brendimiz deyil, “ASAN” bu gün Azərbaycanda yeni, müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri tətbiq edir, onları təbliğ edir və beləliklə, ictimai həyatda “ASAN”ın çox böyük rolu var.”







Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də Quba Bayraq Muzeyinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, muzeyin inşasına 2017-ci ilin martında başlanılıb və tikinti işləri noyabr ayında başa çatdırılıb. Muzey binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Sərgi zalında ümumilikdə 6 bölmə yaradılıb. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi, xanlıqların bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Muzeydə nümayiş olunan Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədlər, Azərbaycanın SSR və müstəqillik dövrlərində qəbul olunmuş konstitusiyaları, gerblər, bayraqlar, poçt markaları, orden və medallar da böyük maraqla qarşılanır.

Muzey Quba Bayraq Meydanında yerləşir. Meydanın ərazisi də abadlaşdırılıb və yaşıllıq sahələri salınıb. İndi bu ərazi də şəhərin gözəl və maraqlı yerlərindən birinə çevrilib. Qeyd edək ki, bu cür layihələrin icrası Azərbaycanda dövlət atributlarına yüksək diqqət və qayğını aydın şəkildə nümayiş etdirir. Belə muzeylər gənc nəsildə vətənpərvərlik hisslərinin aşılanması, onlarda dövlət rəmzlərinə, o cümlədən üçrəngli bayrağımıza olan məhəbbətin daha da artırılmasında mühüm rol oynayır.

Ardı Səh. 6

# Bölgələrdə aparılan uğurlu inkişaf prosesi dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Quba rayonuna səfər edib*

### *Rəsmi xronika*

Prezident İlham Əliyev dekabrın 7-də Quba şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Quba şəhərində 32 çoxmənzilli binanın əsaslı təmirinə başlanılması üçün podratçı təşkilatlara zəruri avansın ödənilməsindən ötrü Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Quba Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb.

Əvvəli Səh. 5

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva filialın rəmzi açılışını bildirən lenti kəsdilər.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, “Azərxalça” ASC-nin Quba filialının binasının ümumi sahəsi 1300 kvadratmetrdir. Burada 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışacaq. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı müxtəlif ölçülü 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

Dövlətimizin başçısına məlumat verildi ki, buradakı toxucular Quba şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində “Azərxalça”nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları “Azərxalça” ASC-nin tədris sertifikatını alacaqlar. Filialın xalça-satış salonunda isə “Azərxalça” ASC-də toxunan xalça və xalça məmulatlarının sərgisi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub. Bu baxımdan milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, daim böyük diqqətə səbəb olub. Buna görə də hazırda Azərbaycanda xalçaçılığın inkişafına xüsusi diqqət yetirilir. Dövlətimizin başçısının həmin sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar isə bu baxımdan xüsusilə əhəmiyyətlidir. Prezident İlham Əliyevin Sərəncamı ilə “Azərxalça” ASC-nin yaradılması bu istiqamətdə dövlət tərəfindən görülən işlərin məntiqi davamıdır. Bu qurumun əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkilidir. Bununla yanaşı, “Azərxalça” ASC xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsini də qarşısına məqsəd qoyub. İlkin mərhələdə “Azərxalça”nın bir neçə rayonda filiallarının yaradılması nəzərdə tutulurdu. ASC-nin ilkin mərhələdə yaradılması nəzərdə tutulan 10 filialından ikisi - Füzuli və Şəmkir rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Hər iki filialın Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilməsi dövlətimizin başçısının bu sahəyə göstərdiyi diqqətin nümunəsidir. Hazırda digər filialların binalarının tikintisi davam etdirilir. Bundan başqa, yerlərdə “Azərxalça”nın xalçaçılıq üzrə hazırlıq-tədris kursları, ustad dərsləri təşkil edilib, işçi potensialının öyrənilməsi və gücləndirilməsi üçün müvafiq tədbirlər görülüb. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verəcək, həmin sahəni stimullaşdıracaq, gənclər arasında xalçaçılığa olan marağı daha da artıracaq.



Sonra dövlətimizin başçısı filialın xalçaçıları ilə görüşüb söhbət etdi.

**Prezident İlham Əliyev:** Sizi yeni xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm. Bu, çox gözəl hadisədir. Azərbaycanın qədim xalçaçılıq sənəti var. Ölkəmizin müxtəlif bölgələrində özünəməxsus xalçaçılıq əsərləri mövcuddur. Quba da həmişə xalçaçılıq mərkəzlərindən biri olub. Qubanın xalçaları həm ölkəmizin, həm də xarici ölkələrin muzeylərində nümayiş etdirilir. Yəni, Qubada həmişə çox güclü xalçaçılıq ənənələri olmuşdur. Hazırda Qubada xalça istehsal edən bir neçə müəssisə fəaliyyət göstərir. Onlardan biri də “Azərxalça”nın bu fabrikidir. Biz “Azərxalça”nı bu yaxınlarda yaratmışıq. Artıq “Azərxalça”nın xətti ilə on fabrik istifadəyə verilib. Mən Horadiz və Şəmkir xalça fabriklərinin açılışlarında olmuşam. Bu gün biz bu fabrikin açılışını qeyd edirik. Eyni zamanda, yeddi digər fabrik fəaliyyətdədir. Gələn il isə ölkəmizin müxtəlif yerlərində əlavə on xalça fabriki açılacaq. Beləliklə, 20 yeni xalça fabriki işə düşəcək.

Bu fabriklərdə işləyənlərin mütləq əksəriyyəti qadınlardır. Burada qadınlar üçün də yaxşı iş şəraiti yaradılıb. Qadınların məşğulluğu bizim üçün çox vacibdir. Xalçaçılıq qadın sənətidir. Bəli, qadınlar bu sənəti yaşadırlar. Hər fabrikdə təqribən 150 iş yeri yaradılır və 20 fabrikdə ən azı üç min qadın işlə təmin olunacaq. Xalçaçılıq bizim milli sərvətimizdir. Siz bu sərvəti qoruyursunuz, bu sənəti yaşadırsınız. Biz də kömək edirik ki, bu sənət daimi olsun və nəsildən nəsilə davam etsin.

**Xalçaçı qadın:** Çox sağ olun, bütün bunlar Sizin sayənizdədir. Allah Sizdən razı olsun. Bu sənət bizə nənələrimizdən miras qalıb.

**Prezident İlham Əliyev**: Bəli, onlar sizi öyrədiblər, siz də gəncləri öyrədirsiniz. Mən burada gəncləri də görürəm. Buna da çox sevinirəm. Yəni, bu sənətə çox böyük maraq var. Ölkəmizin dünyada təbliği işində xalçaçılıq bəlkə də ən öndə gedən sənətlərdən biridir. Eyni zamanda, xalçaçılıq sənəti iqtisadi cəhətdən də ölkəmizi gücləndirir. Çünki bu, ixrac məhsuludur. Biz çalışmalıyıq və çalışırıq ki, qeyri-neft ixracını artıraq. Əlbəttə ki, ilk növbədə, sənayenin, kənd təsərrüfatının, eyni zamanda, xalçaçılığın inkişafı bizə belə bir imkanlar yaradacaq.

Biz, eyni zamanda, Sumqayıtda əyirici-boyaq fabrikinin açılışına da hazırlaşırıq. Yəni, elə etməliyik ki, bütün xammal daxildə istehsal olunsun. Boyalar, iplər, hətta bütün dəzgahlar, yun tədarükü olacaq. Ona görə bugünkü hadisə çox böyük məna daşıyır. Biz gərək xalçaçılığı bərabər qoruyaq. Sizi təbrik edirəm.

**Xalçaçı qadın**: Cənab Prezident, çox hörmətli Mehriban xanım, Sizi Qubada görməyimizə çox şadıq. Xoş gəlmisiniz. Biz çox sevinirik ki, Quba rayonunda çoxlu müəssisələr, iş yerləri açmısınız, çox səy göstərmisiniz. Buna görə biz çox sevinirik, Sizə çox minnətdarıq. Mən özüm 45 ildir toxucuyam, qızım, gəlinlərim də toxucudur, çoxlu sayda yetirmələrim var. Hamısı da bu sənəti sevə-sevə davam etdirirlər. Bizə diqqət göstərdiyinizə, belə yüksək şəraitə görə Sizə çox minnətdarıq. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun. Burada işləyənlərin əksəriyyəti təcrübəli vətəndaşlardır.

**Xalçaçı qadın:** Bəli, böyük təcrübəmiz var.

**Prezident İlham Əliyev:** Burada gənclər də öyrənirlər?

**Xalçaçı qadın:** Gənclər də öyrənirlər. Bildiyimizi gənclərə öyrədirik, əsirgəmirik.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**Digər xalçaçı qadın:** Cənab Prezidentimiz, hörmətli Mehriban xanım, xoş gəlmisiniz. Çox sağ olun ki, bizim bu gözəl rayonumuza gözəllik qatdınız. Allah Sizdən razı olsun. Bizim gözəl gənclərimiz Sizin sayənizdə toxuculuq müəssisəsinə həvəslə gəlib işləyirlər. Mən özüm gənc toxucuyam, bu kurslara yeni başlamışam. Çox sağ olun ki, bizim üçün belə gözəl, isti, işıqlı şəraiti olan müəssisəni açmısınız. Allah Sizdən razı olsun. Bu gün “ASAN xidməti”imizin də açılışı oldu. Çox sağ olun ki, rayonumuzda belə gözəl şərait yaradırsınız.

**Prezident İlham Əliyev:** “ASAN xidməti” Quba və qonşu rayonlara xidmət göstərəcək, 500 min vətəndaşa xidmət göstərəcək. İndicə o mərkəzin açılışı olubdur. Məsləhət görürük ki, siz də gedib bu mərkəzin xidmətlərindən istifadə edəsiniz. Orada əhaliyə çox gözəl xidmət göstəriləcək. Orada 170, burada isə 150 iş yeri yaradılıb. İş yerlərinin yaradılması prosesi belə davam etməlidir. Orada da işləyənlərin əksəriyyəti qadınlardır. Biz çalışırıq ki, qadınların məşğulluq məsələlərini həll edək.

**Xalçaçı qadınlar:** Çox sağ olun, çox minnətdarıq. Allah Sizi qorusun.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonunun əsaslı şəkildə yenidən qurulan Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar avtomobil yollarının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması, müasir səviyyəyə çatdırılması ilə bağlı uğurlu layihələr icra edilir. Əsas məqam isə odur ki, son dövrlərdə respublikanın kənd və qəsəbələrini birləşdirən yolların inşası və yenidən qurulması geniş vüsət alıb. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarında xüsusi yer tutan bu layihələr ölkəmizin bütün bölgələrini əhatə edir.

Quba rayonunda 6 min nəfərin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar avtomobil yollarının tikintisi də Prezident İlham Əliyevin 2013-cü, 2014-cü, 2015-ci və 2016-cı illərdə imzaladığı müvafiq sərəncamlarına əsasən həyata keçirilib. Bu yolların istifadəyə verilməsi bölgədə turizmin, kənd təsərrüfatının inkişafına, əhalinin və nəqliyyatın rahat, təhlükəsiz hərəkətinin təmin olunmasına imkan yaradacaq. Yeni yolların istifadəyə verilməsi həm də sübut edir ki, bu il həyata keçirilməsi nəzərdə tutulan “40 yol layihəsi”nin icrası istiqamətində işlər uğurla davam edir.

“Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Qubanın bu yeni yollarının ümumi uzunluğu 32 kilometrdən çoxdur. Dördüncü texniki dərəcəyə aid ikizolaqlı yolların hərəkət hissəsinin eni 6 metrdir. Layihə çərçivəsində müxtəlif diametrli 27 suötürücü boru tikilib, yol təhlükəsizlik dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb, biraşırımlı, dəmir-beton konstruksiyalı dörd körpü inşa edilib. Sonra dövlətimizin başçısı əsaslı surətdə yenidən qurulan yolların rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

# Beynəlxalq birlik hara gedir?

***Müstəqillik illərində Qərbdə və Avropada müəyyən dairələrin Azərbaycanla bağlı proseslərə ədalətli mövqe nümayiş etdirməməsi Azərbaycan ictimaiyyətini artıq son dərəcə narahat edir. Belə mövqenin yeni bir nümunəsi dekabrın 5-də Avropa Şurasında İlqar Məmmədovla bağlı məsələnin müzakirəsi zamanı özünü göstərmişdir.***



Novruz Məmmədov, Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi

İlqar Məmmədovla bağlı məsələ artıq bir müddətdir ki, Avropa Şurasının fəaliyyətinə istiqamət verə biləcək fiqurlardan biri Baş Katib Yaqlandın yuxusuna haram qatıb. O, elə hesab edir ki, hansı məqsədlərə xidmət etdiyini heç kim bilmir. Görünür, Yaqlandın məqsədi İlqar Məmmədov məsələsini əlində "insan haqlarının müdafiəçisi" bayrağı edərək, nəyin bahasına olursa olsun Azərbaycanı "cəzalandırmaq", Azərbaycana özünün nəyə qadir olduğunu nümayiş etdirməkdir. Düşünür ki, buna asanlıqla nail ola bilər. Nahaq yerə Avropa İttifaqını - xristian klubu adlandırmırlar ki! Niyə Avropa Şurası da xristian klubu olmasın. İslamofobiyanın bu səviyyəyə çatdığı bir zamanda ona kim mane ola bilər. Elə bu yolla da istədiyi "əsas məqsədinə" çata bilər. Belə olmasaydı, ötən illər ərzində, Avropa Şurasına üzv ola-ola Azərbaycanın ərazilərini işğal altında saxlayan Ermənistanla əlaqədar, heç olmasa, bircə dəfə bir yerdə bir söz deyər, mövqe bildirərdi. Amma əfsuslar. Daim insan haqlarından, öhdəlikdən danışan bu Avropa qurumunun, sanki heç bir öhdəliyi yoxdur. Başqa dövlətin ərazilərini işğal altında saxlayan dövlət Yaqlandın mövqeyinə görə heç bir məsuliyyət daşımır.

Ermənistanın uzun illərdir Azərbaycan torpaqlarını işğal altında saxlamasına, orada yaşayan 1 milyondan artıq Azərbaycanlının təməl hüquqlarını pozmasına, Xocalı soyqırımını törətməsinə baxmayaraq, ona qarşı heç bir tədbir görülmür, hər hansı sanksiya tətbiq edilmir və bu ölkə hələ də insan hüquqlarının simvolu olan Avropa Şurasının üzvüdür. Avropa dəyərləri budurmu? Nə səbəbə Avropa İttifaqından öz ərazi bütövlüyünə dəstək almaq üçün Azərbaycan 26 il gözləməli idi?

Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalına biganə yanaşan Avropa özü bu gün separatizmlə üzləşdiyindən məsələyə mövqeyini dəyişməyə, öz üzvlərinin ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar verməyə başlayıb ki, bu da ikili standartların bariz nümunəsidir. Halbuki biz dəfələrlə separatizmə qarşı vahid mövqeyin formalaşdırılmasının zəruriliyini, separatizmin bumeranq effekti verərək, Avropanın özünə qayıdacağı barədə fikirlər bildirmişik. Əgər Avropa Şurası belə addımlarla Azərbaycanı qurumdan kənarlaşdırmaq niyyətini əsaslandırmağa çalışırsa, buna heç bir ehtiyac yoxdur. Azərbaycan Avropa Şurasına üzv olduğu dövrdən etibarən, Avropa dövlətlərə deyil, məhz ilk olaraq Azərbaycana qarşı tətbiq etməyə çalışır. Ermənistanda mövcud olan çoxsaylı insan hüquqları pozuntularının təsbit olunması fonunda bu ölkə haqda heç bir tənqidi fikrin belə söylənilməməsi AŞ Nazirlər Komitəsinin bu qərarı ilə bağlı ciddi suallar doğurur.

Bu isə yenə də müsəlman İttifaqı ilə həyata keçirdiyi beynəlxalq əməkdaşlıq layihələri, müxtəlif təşkilatlar çərçivəsində göstərdiyi yardımlar barəsində heç olmasa bir müsbət fikir eşitmək əvəzinə, qarşılaşdığı hər bir məsələdə həm qurumun, həm də onun rəhbərliyinin qərəzli münasibəti ilə üzləşmişdir.

Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvüdür. Bununla belə, Azərbaycanın təşkilatdan çıxması faciə deyil. Avropa Şurasının digər üzv ölkələrində baş verən beynəlxalq hüquq və insan hüquqlarının, eləcə də Avropa Şurası Nizamnaməsinin pozuntuları, təşkilatın bir üzv ölkəsinin digərinin ərazisini işğalı, təşkilat qarşısında öhdəliklərin yerinə yetirilməməsi (üzvlük haqqının ödənilməməsi, məhkəmə qərarlarının icra edilməməsi, jurnalist, vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı təzyiqlər və onların fəaliyyətinə məhdudiyyətlər) və Avropa İnsan Hüquqları Məhkəməsinin minlərlə qərarının icra edilməməsi fonunda yalnız Azərbaycana qarşı belə bir addım beynəlxalq hüquqa - ədalətə məhəl qoymamaqdan, yuxarıda qeyd etdiyimiz münasibətin davamından başqa bir şey deyil.

Beləliklə, Avropa Şurası Avropa İnsan Hüquqları Konvensiyasının 46.4-cü maddəsini həmin dövlətə qarşı qərəzli mövqe ortaya qoyur və islamofobiyanın müəyyən formada təzahürü deyilmi? Hətta ikitərəfli danışıqlar zamanı özünü dost kimi göstərməyə çalışan bəzi dövlətlər də səsvermə zamanı tamam başqa cür hərəkət edir.

Halbuki Azərbaycan sözügedən qərarın icrası üçün bütün mümkün vasitələrdən istifadə etməklə bağlı öz vədlərinə sadiq qalaraq, Prezidentin sərəncamı ilə müvafiq qanunvericilik islahatlarının aparılmasına davam edir. Bu xüsusda, qanunvericiliyə edilmiş dəyişikliklərə uyğun olaraq, 2017-ci ilin dekabrın 1-dən etibarən İ.Məmmədov məhkəməyə müraciəti əsasında cəza müddətinin 2/3 hissəsini çəkdiyinə görə şərti azadlığa buraxılma hüququna malik ola bilər. Bununla yanaşı, Azərbaycan tərəfi məsələnin digər həll yollarının axtarılması üçün konstruktiv danışıqlara gedə bilər.

Lakin Avropa Şurasının bir qurumu prosesin hansı istiqamətdə gedəcəyini nəzərə almadan müəyyən dairələrin təsiri altına düşərək qərəzli mövqelərini davam etdirir. Vəziyyətin bu dərəcəyə çatmasında isə AŞ Baş katibi Yaqlandın həlledici rolu göz qabağındadır. Son bir neçə onillikdə beynəlxalq aləmdə eləcə də Avropada baş verən hadisələr və proseslər, bunların nəticəsində müxtəlif ölkələrdə yüz minlərlə insanın tələf olması, milyonlarla insanın evindən - ocağından didərgin düşərək qaçqına çevrilməsi, minlərlə şəhərin, kəndin xaraba qalması və sonda yaranmış gərginlik beynəlxalq birliyi və onun liderlərini daha çox narahat etməli və düşündürməlidir. Bu gün radikalizm, terrorizm, separatizm, miqrasiya, kütləvi qırğın silahlarından istifadə nə üçün belə geniş vüsət alıb? Bütün bunların səbəbləri nədir? Dünya birliyi hara istiqamət götürüb? Sabit, təhlükəsiz və davamlı inkişafı təmin edən gələcəyə tam təminat və əminlik varmı?

Yaqlandı tanıyanlarda da, tanımayanlarda da sual yarana bilər: Onun fəaliyyətinə belə münasibətə ehtiyac varmı? Əminliklə, "var" deyirəm. Ona görə ki, bu yolla dünya düzəninin indiki vəziyyətə düşməsinə töhfə verilir.

Təəssüflər olsun ki, elə bu günlərdə atılan addımlar da əvvəlkilərin davamından başqa bir şey deyil. Əminəm ki, dünyanın hər yerində, elə Avropada da mənim fikirlərimi bölüşənlər çoxdur.

## "Azerspace-2" gələn ilin əvvəlində orbitə çıxarılacaq

Gələn ilin əvvəlində Azərbaycanın ikinci telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə deyib. Nazir müavini bildirib: "2018-ci ildə, çox qısa bir zamanda "Azerspace-2" peykinin orbitə çıxarılması gözlənilir. Hazırda işlər plana uyğun şəkildə həyata keçirilir. Demək olar ki, son hazırlıq mərhələsidir".





## Entoni Qrin: "Oksford Universiteti professor Nərgiz Paşayeva ilə şəffaf, ikitərəfli inam və etimad əsasında qurulan əməkdaşlığı daimi davam etdirmək qərarına gəlib"

***Böyük Britaniyada işgüzar səfərdə olan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin (https://www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus) Azərbaycan tərəfdən rəhbəri, akademik Nərgiz Paşayeva dekabrın 5-də Oksford Universitetinin Akademik Proqramlar üzrə İnkişaf Departamentinin direktoru Entoni Qrin və Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin İngiltərə tərəfdən rəhbəri professor Edmund Hertsiq ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin 2017-ci ildəki elmi-tədris fəaliyyəti müzakirə edilib. Başlıca olaraq 2018-ci ildən etibarən Mərkəzin Universitetdə daimi fəaliyyətinə dair həyata keçiriləcək rəsmi, protokol mərhələləri və elmi-tədris planları haqda geniş fikir mübadiləsi aparılıb. İlk növbədə, Universitetin rəsmi nümayəndəsi Entoni Qrin bu illər ərzində Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayeva ilə şəffaf, ikitərəfli inam və etimad əsasında qurulmuş əməkdaşlıqdan məmnunluq hissini ifadə edib və Universitetin rəhbərliyi adından akademik Nərgiz Paşayevaya minnətdarlığını çatdırıb. O qeyd edib ki, dünyanın ən qədim və ən nüfuzlu elm ocaqlarından sayılan Oksford Universiteti dəyişməz qayda olaraq əməkdaşlıq etdiyi tərəf müqabilini həmişə böyük diqqətlə seçir və əsl akademik tutumu, davamlı elmi-pedaqoji təcrübəsi olmayan və alimlərin təmsil edilmədiyi təklif və layihələrdə iştirak etmir. Entoni Qrin Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin fəaliyyət göstərdiyi beş il ərzində artıq özünün akademik simasını doğrultduğunu və bu Universitetin bundan sonra daimi bir hissəsinə çevrilməsini əhəmiyyətli tarixi bir an kimi qiymətləndirib. Universitetin rəsmi nümayəndəsi qeyd edib ki, bu tarixdən başlayaraq Oksford Universiteti akademik Nərgiz Paşayevanın rəhbərliyi altında Nizami Gəncəvi Mərkəzinin Oksford Universitetində daimi fəaliyyətinin təmin edilməsi üçün bütün səyləri göstərməyə hazırdır.

Bu daimiliyin gerçəkləşdirilməsi üçün Mərkəzin yaradılmasının ilk günlərindən böyük əmək sərf edən Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun keçmiş direktoru, həmin universitetin Nizami Gəncəvi Mərkəzinin İngiltərə tərəfdən hazırkı rəhbəri və Şərqşünaslıq İnstitutunun aparıcı professoru Edmund Hertsiq akademik Nərgiz Paşayevanın təklifi nəticəsində Azərbaycan elmi və ümumiyyətlə, Azərbaycan tarixi üçün böyük və qürurverici bir yenilik haqqında da məlumat verib. O deyib ki, Nizami Gəncəvinin adının, Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına verilməsi ilə bağlı təklifin rəsmi razılığı alınıb. Qeyd edək ki, bu təklif akademik Nərgiz Paşayeva tərəfindən Universitet rəhbərliyinə verilmişdir.

Öz növbəsində, akademik Nərgiz Paşayeva ona və onun timsalında bütün Azərbaycan elmi cəmiyyətinə və tarixinə göstərilən bu böyük etibara və hörmətə görə professor Edmund Hertsiqə və Entoni Qrinə böyük təşəkkürünü bildirib. Professor Nərgiz Paşayeva qeyd edib ki, Oksford Universitetində Nizami Gəncəvi Mərkəzinin daimiliyi, ümumiyyətlə, ölkəmiz üçün inkaredilməz uğurdur. Mərkəzin sadəcə beş, on, iyirmi, əlli il deyil, əsrlər boyu Oksford Universitetinin tərkibində qalıb fəaliyyət göstərməsi gələcəkdə bütün Azərbaycan alimləri və tələbə nəsilləri üçün dünyanın bir nömrəli universitetini əlçatan edir. Nizaminin adının Azərbaycanın adı ilə dünya elmi çevrəsinin ən yüksək pilləsində - Oksford Universitetində bərabər, daimi qalması isə ölkəmiz və xalqımız üçün böyük tarixi əhəmiyyət daşıyır. Qeyd edək ki, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildə yaradılıb və bu günədək Qərbdə Azərbaycan elmini dünyada təmsil edən ali elm ocağında yeganə rəsmən qəbul edilmiş funksional akademik Mərkəzdir.

# Naxçıvanın inkişaf modeli bölgələrə nümunədir

## *İlham Əliyev: "Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə, nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır"*

***Müasir müstəqillik illərində özünün 26 illik inkişaf tarixi ilə böyük qürur mənbəyinə çevrilən Azərbaycan çoxşaxəli iqtisadiyyatı ilə istər regionda, istərsə də dünya miqyasında nümunəyə çevrilməkdədir.***

Bu baxımdan, Azərbaycanın və Şərqin ən qədim və iri şəhərlərindən olan sivilizasiyanın beşiyi də adlandırılan, hər zaman milli iqtisadi potensialın inkişafında və artmasında söz sahibi olan, strateji əhəmiyyət daşıyan, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni və maddi həyatında daima güclü mövqeyi ilə seçilən, ərazi baxımından ölkəmizin təhlükəsizlik simvoluna çevrilən Naxçıvan muxtar respublikasının makroiqtisadi göstəricilərindən söz açmaq yerinə düşər. Burada təməli qoyulan sağlam iqtisadi mühit özünü bütün sahələrdə göstərməklə, ümumilikdə, ölkə iqtisadiyyatının potensial dayağına çevrilməkdədir.



### Naxçıvanı müasir inkişafa qovuşduran dövr

Muxtariyyatın 92 illik dövrünə nəzər saldıqda, Naxçıvanın zəngin təbii iqlim və mineral ehtiyatlarından istifadə olunmadığı, onun bir muxtar qurum kimi güclü iqtisadiyyata sahib olması əvəzinə, həmsərhəd olduğu qonşu respublikadan asılı olmasına daha çox diqqət edildiyi görünür. Təkcə Naxçıvan Muxtar Respublikasının deyil, bütövlükdə, Azərbaycan Respublikasının tarixinə dönüş



ili kimi yazılmış 1969-cu ildən sonrakı dövr, bu mənada, Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafında dərin izlərlə yadda qalmışdır. Bu dövrdən başlayaraq öz xalqına və millətinə xidmət etməyi ən böyük xoşbəxtlik sayan xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi altında bütün Azərbaycan kimi, Naxçıvanın da inkişaf dövrü başlanmışdır. 1969-1987-ci illərdə gedən sürətli inkişaf prosesləri nəticəsində Naxçıvanda, ilk dəfə olaraq, regionda yaradılmış irihəcmli istehsal müəssisələri hesabına rahat iş yerləri açıldı. Belə ki, 1985-ci ilədək Naxçıvanda müxtəlif sahələr üzrə 21 iri sənaye müəssisəsi istifadəyə verildi. Qeyd edək ki, 1990-1993-cü illərdə Naxçıvanın muxtariyyəti daha böyük əhəmiyyət qazanmışdır. Bu dövr xalqımızın öz Liderinin ətrafında yenidən daha sıx birləşməsi dövrü kimi xarakterizə edilir. Bu dövrdə Naxçıvanın hər yerində - şəhər, kənd dəmədən möhtəşəm quruculuq işləri həyata keçirilmişdir. Belə ki, muxtar respublikada ümumi inkişafı əks etdirən ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 56 dəfədən çox artaraq, 2 milyard 467 milyon manatı üstələmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 42 dəfədən çox artaraq, 5581 manatı ötmüşdür. Eyni zamanda, əgər 1995-ci ildə muxtar respublikada 56 sənaye müəssisəsi və cəmi 1 elektrik enerjisi istehsal edən müəssisə olmuşdursa, hazırda bu göstəricilər, müvafiq olaraq, 441-ə və 8-ə çatmışdır. Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi öz inkişafının ən yüksək mərhələsinə çatmış Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında əldə olunmuş bu nailiyyətlər burada ictimai həyatın bütün sahələrində özünü göstərir.

### Dövlət başçısının hər səfəri uğurlu nəticələrdən xəbər verir

Ölkə Prezidenti İlham Əliyevin regionlara hər səfəri, o cümlədən, uğurlu nəticələr



# Naxçıvanın inkişaf modeli bölgələrə nümunədir

## İlham Əliyev: “Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə, nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır”

deməkdir. Bu mənada, ölkə rəhbərinin Naxçıvana hər səfərində burada uğurlu inkişafın şahidi olduğunu vurğulamış və son səfəri zamanı da aparılan quruculuq işlərini yüksək qiymətləndirərək bildirmişdir: “Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq-abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanıb. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var”.

Bu, Azərbaycan Prezidentinin muxtar respublika rəhbərinin, eləcə də, bütün naxçıvanlıların fəaliyyətinə verdiyi yüksək dəyərdir. Blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilib, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün Naxçıvanda hansı sahəyə baxsaq, orada geniş islahatların aparıldığının şahidi olarıq. Bütün sahələrdə analoqu olmayan uğurlar, ona görə qazanılır ki, burada Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin düşünülmüş praqmatik uğurlu siyastəinin nəticəsidir. Odur ki, dövlət başçısı Naxçıvana səfəri zamanı bu məsələni xüsusi vurğulayaraq deyib: “Abadlıq-quruculuq işləri, bir tərəfdən ölkəmizin gücünü, digər tərəfdən Naxçıvan rəhbərliyinin səmərəli işini və sakinlərin bu işlərə olan münasibətini göstərir. Bütün bu işlər böyük məhəbbətlə, zövqlə və səliqə ilə görülür”.



### Regional Dövlət Proqramının icrası digər muxtariyyatın sosial-iqtisadi inkişafında mühüm mərhələdir

Milli iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olan regional inkişafa 2003-cü ildən sonra xüsusi diqqət yetirilmişdir. Belə ki, regionların iqtisadi inkişafını sürətləndirmək və miqyasını genişləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü, rəhbərliyi və nəzarəti ilə dövlət proqramları qəbul olunub və həyata keçirilməsi ardıcıl təmin edilibdir. Regional Dövlət Proqramının icrası, digər regionlarda olduğu kimi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında da mühüm mərhələ olubdur. Belə ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 2003-cü ilə nisbətən məhsul (xidmət) istehsalı 12,3 dəfə, sənaye məhsullarının istehsalı 46,5 dəfə, kənd təsərrüfatı məhsulları 4,8 dəfə, tikintinin həcmi 12,5 dəfə, informasiya və rabitə xidmətləri 10 dəfə, xarici ticarət dövriyyəsi 12,2 dəfə artıbdır. Naxçıvan iqtisadi rayonunda ümumi məhsul (xidmət) istehsalında sənaye məhsulunun xüsusi çəkisi artaraq, 2014-cü ildə 32 faiz olubdur.



Qeyd edək ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı həmişə diqqət mərkəzində olubdur. Aparılmış genişmiqyaslı işlərin, ardıcıl siyasətin nəticəsində, artıq muxtar respublikada, demək olar ki, bütün əsas kənd təsərrüfatı məhsulları üzrə daxili tələbat, nəinki tam ödənilir, hətta bəzi məhsullar ölkəmizin və yaxın xarici dövlətlərin bazarlarına da çıxarılır. Nəticə etibarilə, muxtar respublikanın ümumi daxili məhsulu 2010-cu ildəki 1,2 milyard manatdan 2014-cü ildə 2,4 milyard manata çatıbdır. Naxçıvan MR- də son 12 ildə, yəni 2003- 2014-cü illərdə əsas kapitala 5,7 milyard manat investisiya qoyulub və burada 63,2 min yeni iş yeri açılıbdır. Onların da 75 faizə qədəri daimidir. Regionda təsərrüfat subyektlərinin sayı artaraq, 2013-cü ildə 17 minə yaxın olmuşdur. Ümumi məhsul istehsalının həcmində qeyri-dövlət müəssisələrinin payı 87 faiz olub, sahibkarlıq subyektlərinin sayı isə 2 dəfədən çox artıbdır.



Naxçıvan iqtisadi rayonunda əsas kapitala investisiyaların 46,4 faizini dövlət, 53,6 faizini isə qeyri-dövlət investisiyaları təşkil edibdir. Əsas kapitala investisiya qoyuluşu, əsasən, 97 faiz daxili mənbələr hesabına həyata keçirilibdir.

### “Ordu quruculuğu sahəsində Naxçıvanda çox böyük işlər görülür

Müasir Naxçıvanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də burada güclü ordunun yaradılmasıdır. Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində diqqət mərkəzində olan məsələlərdən biri də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə tanışlıqdır. Ölkə başçısı Naxçıvan Muxtar Respublikasına səfərlərinin birində hərbi quruculuq sahəsində burada görülən işləri yüksək qiymətləndirərək deyib: “Ordu quruculuğu sahəsində Naxçıvanda çox böyük işlər görülür. Bu hərbi hissə Azərbaycandakı hər bir hərbi hissə üçün nümunə, örnək ola bilər. Burada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycan Ordusu, məhz bu cür olmalıdır”.

Dövlət başçısı Naxçıvana səfəri zamanı həyata keçirilən ordu quruculuğu tədbirlərindən razılığını və Əlahiddə Ümumqoşun Ordusunun muxtar respublikanı etibarlı qoruduğundan əminliyini ifadə edib: “Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarlarını qoruya bildilər, düşməni yerində oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Ən müasir texnika, silah, sursat buraya göndərilir və döyüş qabiliyyəti artır, xidmət şəraiti yaxşılaşır”.

Beləliklə, yuxarıda sadalanan xüsusiyyətlər inkişafın Naxçıvan modelinin və ya Naxçıvan möcüzəsinin əsas səbəbi olmuşdur. Çünki Naxçıvan Muxtar Respublikasının ölkəmizin hərtərəfli inkişafındakı rolunu qiymətləndirmək, təkcə coğrafi baxımdan deyil, həm də iqtisadi, eyni zamanda da, siyasi əhəmiyyətini dəyərləndirmək, sözün həqiqi mənasında, çox mühüm tarixi addımdır. Bu, bir daha göstərir ki, artıq Azərbaycanda mükəmməl idarəetmə strategiyasına söykənən mütərəqqi, müdrik bir siyasət yeridilir və bu siyasət hər qarış torpağına sahib çıxır, bunu bacarır və mərdliklə qorunmasına xidmət etməkdədir.

**RƏFİQƏ KAMALQIZI**

# Liviyada qul bazarı: Qərbin bunda məsuliyyəti nə qədərdir?



***Hər il dekabr ayının 2-si qul əməyinin ləğv edilməsi uğrunda beynəlxalq mübarizə günü kimi qeyd olunur. Bu tarix BMT-nin Baş Assambleyasının insan alverinə qarşı mübarizə haqqında 1949-cu il tarixli konvensiyanı (qətnamə 317(IV)) qəbul etməsi ilə bağlıdır [i] . BMT-nin hesablamalarına görə hazırda dünyada 40 milyon insan köləlik şəraitində yaşayır. Lakin bu rəqəm klassik mənada quldarlığı deyil, onun müasir təzahürlərini ifadə edir.***

Ancaq 14 noyabr tarixində CNN telekanalında yayımlanan bir reportaj dünyanı silkələdi. Həmin reportajda Liviyada qara dərili bir gəncin sözün əsl mənasında qul bazarında tender yolu ilə 400 ABŞ dolları müqabilində satışı həyata keçirilirdi [ii] .

Liviya qaçqınların dəniz yolu ilə Afrikadan Avropaya keçidi üçün əsas tranzit yollardan biri hesab olunur. Statistikalara əsasən, son 3 il ərzində orta hesabla hər il 150 min miqrant Liviyadan Aralıq dənizi vasitəsilə ümid səfərinə çıxmışdır [iii] . Beynəlxalq Miqrasiya Təşkilatının statistikasına əsasən isə son 4 ildə təxminən 3 mindən artıq miqrant bu səfərdə həyatını itirmişdir [iv] . Hazırda Liviya düşərgələrində Avropaya keçmək istəyən miqrantların sayının 700 min ilə 1 milyon arasında olduğu ehtimal edilir [v] . Bu insanların orqan tacirləri tərəfindən donor kimi istifadə edildiyi də iddia olunur [vi] .

Düşərgələrdəki humanitar vəziyyətin nə qədər ağır olduğunu BMT-nin insan hüquqları üzrə komissarı Zeid Raad Əl-Hüseynin cari ilin sentyabr ayındakı bəyanatından [vii] da aydın şəkildə hiss etmək mümkündür.

BMT Baş katibi Antonio Qutterreş vəziyyətlə bağlı dəhşətə gəldiyini və bunun bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilə biləcəyini ifadə etsə də [viii] , ABŞ Prezidenti Donald Tramp öz tvitter hesabında bu xəbərlərin yalan olduğunu bəyan etdi [ix] .

Məsələnin müzakirə edilməsi məqsədilə Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə 28 noyabr tarixində BMT Təhlükəsizlik Şurasının təcili iclası keçirildi [x] . İclasın ən yaddaqalan məqamı isə İsveç nümayəndəsi Karl Skaunun Liviya hakimiyyətini qul ticarətinə əngəl olmamaqda ittiham etməsi idi [xi] . Axı bu ölkədə dövlətçilik Qəddafi hakimiyyətinin süqutundan sonra demək olar ki, iflasa uğramışdı. Axı bu gün Liviya torpaqları mərkəzi Liviya hakimiyyətindən çox, başqa güclərin nəzarətindədi.

O zaman qəribə bir vəziyyət ortaya çıxır. Hər kəsin yaxşı yadındadır ki, 2011-ci ilin 17 mart tarixində BMT Təhlükəsizlik Şurası Liviyadakı vəziyyətlə əlaqədar 1973 sayılı qətnamə [xii] qəbul etmiş, 19 mart tarixində isə NATO bu qətnaməni icra etmək məqsədilə həmin ölkəyə qarşı səlib yürüşü xarakterli hərbi əməliyyata başlamışdı [xiii] . Sanki Liviyada vəziyyət dünyada sülhü və təhlükəsizliyi təhdid edəcək qədər ağır idi və gözləmək olmazdı. Sanki o zamana qədər BMT Təhlükəsizlik Şurasının qəbul etmiş olduğu bütün qətnamələr bu şəkildə təcili icra olunmuşdu. Bu dəfə NATO BMT TŞ qətnamələrinin icra edilməsi üzrə məsul orqan funksiyası yerinə yetirirdi.

Madam ki, vəziyyət belə idi, o zaman beynəlxalq koalisiyanın uğurlu hərbi əməliyyatları vəziyyəti dəyişməli deyildimi? Əgər Qəddafi hakimiyyəti ölkə üçün, region üçün, dünya üçün böyük təhlükə kəsb edirdisə, o zaman Qəddafinin devrilməsi və fiziki olaraq məhv edilməsi problemi tamamilə həll etməli deyildimi?

Şübhəsiz ki, Qəddafi öz ölkəsində ideal bir demokratiya nümunəsi deyildi, bəlkə də, o bir real problem mənbəyi idi. Lakin problemi fəlakətlə əvəz etmək nə dərəcədə düzgün yanaşmadır? Axı bu gün Liviyadakı qul bazarının Qəddafi dövrünün bir qalığı deyil, ondan sonrakı dövrün meyvəsi olduğu bir həqiqətdir.

O halda, nədən dünya ictimaiyyətinin reaksiya verməsi üçün CNN-in reportajını gözləməsi zərurəti yarandı? Müəyyən ölkələrdə nə vaxtsa rejimi tənqid etmiş bir vətəndaşın tamamən başqa bir cinayət tərkibi ilə həbsi ilə əlaqədar az qalsın səfərbər olan "insan hüquqları" müdafiəçisi qismində iştirak edən bəzi qərb dövlətləri, beynəlxalq hökumətlərarası media nümayəndələri bu müddət ərzində hara baxırdılar? Human Rights Watch, Amnesty International, Freedom House və bunun kimi digər qeyri-hökumət təşkilatları niyə susurdu? Axı bu vəziyyət bir gündə yaranmadı, əksinə aylardır davam edir.

Elə bu səbəbdəndir ki, artıq müxtəlif media orqanlarında, çoxsaylı mütəxəssislər Liviyada vəziyyətin bu həddə yüksəlməsində Qərbin məsuliyyəti olduğunu bəyan edir [xiv] . O zaman Qərb Liviyaya nə üçün müdaxilə etdi? Oraya universal dəyərlər, demokratiya, insan hüquqları gətirmək üçün, elə deyilmi? Qərb ölkələrindəki dəyərlər, demokratiya, insan hüquqları budurmu? Hər halda belə deyil. O zaman niyə öz ölkələrindəki dəyərləri, demokratiyanı, insan hüquqlarını özləri ilə oraya aparmadılar? Olmaya oradakı insanların hüquqları Qərbin carçısı olduğu insan hüquqlarının əhatə dairəsindən kənarda qalır? Olmaya universal dəyərlər qitəsini dəyişdikdə universallığını, etnik mənsubiyyətə görə isə dəyərini itirir? O zaman bu çoxmilli hərbi əməliyyatlar quldarlığın yer üzündə yenidən bərpası üçünmü həyata keçirilirdi?

Qərb yeni universal dəyərlər yaradır, yoxsa təkrar 210 il geriyəmi gedir? Halbuki qul əməyini ilk ləğv edən elə Qərb özü olmuşdur (qul əməyi ilk dəfə 1807-ci ildə ABŞ-da və İngiltərədə ləğv edilmiş, onları izləyən üçüncü dövlət isə Osmanlı İmperiyası olmuşdur). Qərbdə qul əməyinin ləğvinin 210 illiyinin qeyd edildiyi bu günlərdə onu bərpa etmək müsbət haldırsa, o zaman bunu niyə əvvəlcə öz ölkələrində bərpa etmədilər?

O zaman BMT-nin qul əməyinin qadağan edilməsinə, ləğvinə dair sənədlərinin, 2 dekabr gününün buna həsr edilməsinin nə mənası var? Beynəlxalq hüququn nə mənası var? Beynəlxalq hüququn iflic olmasının məsuliyyəti kimin üzərinə düşür? Bəşəriyyətə bunun izahını, tarix qarşısında bunun hesabını kim verməlidir?

Axı Qərb bu gün həm iqtisadi, həm siyasi, həm hərbi, həm elmi, həm texnoloji baxımdan inkişafın zirvəsində dayanır. İnkişaf səviyyəsinin özünün yaratdığı bir mənəvi məsuliyyət vardır-bəşəriyyət naminə məsuliyyət. İnsanlar, xüsusilə də Afrika, Yaxın Şərq kimi ölkələrin vətəndaşları Qərbi hər zaman bir model, bir nümunə, bir hədəf kimi görüblər. Qərbdən gözlənilən, Qərbə yaraşan da insanların bu gözləntilərini yarımçıq qoymamaq, onları məyus etməmək, onların yanılmış olduqları təəssüratı yaratmamaqdır. Ümidlərin puça çıxması çox ağır hissdir. Belə olanda inam, etimad, bir sözlə hər şey itir və dövlətlərarası münasibətlər indiki vəziyyətə düşür.

***Newtimes.az***

## "Həmas" lideri ərəb ölkələrini ABŞ-la əməkdaşlığı dayandırmağa çağırıb



Fələstinin "Həmas" İslam hərəkatının siyasi bürosunun başçısı İsmayıl Haniyə ərəb ölkələrini ABŞ-la əməkdaşlığı dayandırmağa çağırıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Haniyə, həmçinin Birləşmiş Ştatların Prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasına görə peşman olacağını bildirib. Bu qərarı Fələstin xalqına qarşı təcavüz adlandıran "Həmas" lideri Fələstin tufanının Tramp peşman olanadək davam edəcəyini deyib.

Xatırladaq ki, dekabrın 6-da ABŞ Prezidenti Donald Tramp Qüdsü İsrailin paytaxtı kimi tanıdığını elan edib və həmçinin Amerika səfirliyinin Təl-Əvivdən bu şəhərə köçürülməsi barədə sənəd imzalayıb. Birləşmiş Ştatlar konqresi ABŞ səfirliyinin Qüdsə köçürülməsi planını hələ 1995-ci ildə qəbul etmişdi. Lakin şəhərin mübahisəli statusu və problemin müsəlman aləmi üçün həssaslığı səbəbindən Amerikanın bütün prezidentləri bu qərarı o vaxtdan indiyədək təxirə salırdılar. Trampın bu addımı təkcə ərəb ölkələrində və müsəlman aləmində deyil, dünyanın çox yerində etirazlar doğurub. ABŞ-ın qəbul etdiyi qərarın sülh prosesini pozacağı, Yaxın Şərqdə gərginliyi artıracağı və yeni zorakılıq dalğası doğuracağı istisna olunmur.

## Prezident Petro Poroşenkodan Ukrayna parlamentinə ultimatum

Ukrayna Prezidenti Petro Poroşenko ölkənin Ali Radasına ultimatum göndərib. O qeyd edib ki, Ukrayna parlamenti Ali Antikorrupsiya Məhkəməsinin yaradılması ilə bağlı konkret iş görməsə, prezidentlik hüququndan istifadə edərək qanun layihəsini qəbul edəcək.

"Dekabrın 8-də artıq bir ay olacaq ki, Ali Antikorrupsiya Məhkəməsinin yaradılması ilə bağlı Ukrayna Ali Radasına müraciət etmişəm. Mənim müraciətim yenə qüvvəsində qalır. Əgər növbəti həftənin əvvəlində qanun layihəsinin qəbulu ilə bağlı hər hansı istək görməsəm, 7-10 gün ərzində öz təşəbbüsümlə layihəni qəbul edəcəyəm", - deyə Poroşenko qeyd edib. Prezident, həmçinin Ali Radadan Venesiya Komissiyasının rəyi əsasında "Antikorrupsiya məhkəmələri haqqında" qanuna yenidən baxılmasını istəyib.

# Xalqa bağışlanan ömür

***Bakı şəhər İcra Hakimiyyəti Aparatının Kino Xidməti İdarəsi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirib. Tədbirdə öncə Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***






Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, professor Urxan Ələkbərov, millət vəkilləri Rasim Musabəyov, Elman Nəsirov, Rəfail Cəbrayılov və Əflatun Amaşov çıxış edərək, Ulu Öndərin xalqımız və vətənimiz qarşısında göstərdiyi xidmətlərdən danışıblar. Qeyd edilib ki, Azərbaycanda sabitliyin, vətəndaş həmrəyliyinin bərqərar olunması, doğma Azərbaycanın müstəqilliyinin qorunması, dövlətçiliyinin möhkəmləndirilməsi, inkişafı yalnız və yalnız Ulu Öndərin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin elm, təhsil və mədəniyyət sahələrinin inkişafında əvəzolunmaz xidmətləri olub. Vurğulanıb ki, Azərbaycanın tarixi və taleyi Ulu Öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, məhz onun adı ilə bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarıb.

Bakı şəhər İcra Hakimiyyəti başçısı Aparatının Kino Xidməti İdarəsinin rəisi Gültəkin Həsənova çıxışında Ulu Öndərin kino sahəsinə göstərdiyi diqqət və qayğıdan söz açıb.

Tədbirdə incəsənət ustalarından əməkdar artist Nuriyə Hüseynova "Küçələrə su səpmişəm" mahnısını ifa edib. Sonra Kino Xidməti İdarəsi tərəfindən hazırlanan, ssenari müəllifi və rejissoru Gültəkin Nəriman olan "Xalqa bağışlanan ömür" adlı sənədli film nümayiş olunub.

***ZÜMRÜD***

# "Ulu Öndər Heydər Əliyev milli dövlətçilik ideologiyasının banisidir"

## *YAP Xaçmaz rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar elmi-nəzəri konfrans keçirib*

***Dünən YAP Xaçmaz rayon təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına İdeoloji Mərkəzdə Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar elmi-nəzəri konfrans keçirilib. Konfrans Ulu Öndərin xatirəsini bir dəqiqəlik sükutla başlamışdır.***





Konfransı giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Sevinc Sədullayeva açaraq çıxışında görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib, qoruyan və inkişaf etdirən Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil etdiyini qeyd edir: "Ümummilli Lider Heydər Əliyev haqqında çox yazılıb. Onun irsi hərtərəfli təhlil edilir. Lakin bu prosesin sonu yoxdur. Çünki Dahi Öndər Heydər Əliyev xalqımız və dövlət müstəqilliyimiz üçün elə xidmətlər göstərib ki, hər bir nəsil Onun gördüyü işləri nümunə kimi götürməli və tövsiyələrini heç vaxt unutmamalıdır. Onun həyat və fəaliyyətinə təkrar müraciət etməliyik, analiz edib nəticə çıxarmalıyıq. Ulu Öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirdi və müstəqil Azərbaycan dövlətinin memarı oldu".

Tədbirdə YAP üzvü Haliyə Osmanova çıxış edərək, Ulu Öndər Heydər Əliyevin xalqı və dövləti üçün gördüyü xeyirli fəaliyyətindən danışıb.

YAP Xaçmaz rayon təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına İdeoloji Mərkəzin direktoru Cavad Mehmanov "Ulu Öndər Heydər Əliyev Milli dövlətçilik ideologiyasının banisidir" mövzusunda geniş məruzə ilə çıxış etmişdir.

Sonda gənclərin ifasında "Yox, sən ölə bilməzsən" kompozisiyası dinlənilmişdir.

***RƏFİQƏ***



## Böyük Britaniyanın ticarət naziri Azərbaycana səfərə gəlir

Dekabrın 14-15-də Böyük Britaniyanın ticarət naziri Baronessa Rona Feyrhed Azərbaycanda səfərdə olacaq. Böyük Britaniyanın ölkəmizdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, Bakıda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın ikinci iclası keçiriləcək. Xanım Rona Feyrhed birgə Hökumətlərarası Komissiyanın Böyük Britaniya tərəfindən həmsədridir. Azərbaycan tərəfindən isə birgə Hökumətlərarası Komissiyaya iqtisadiyyat naziri Şahin Mustafayev həmsədrlik edir.



## Kərimli: xəyanət, qisaslar və intriqalar toplusu

**RƏFİQƏ**

Belə bir deyim var: ... xəmiri belə yoğrulub. Əli Kərimli kimilərə aiddir bu. Çünki tarix və zaman özü hər şeyi sübut edir. Sovetlər dönəmindən bu günə kimi AXCP sədri Ə.Kərimlinin məkrli əməlləri zaman-zaman onun xəyanətkar olduğunu sübut edib. AXCP sədri Ə.Kərimli və onun yedək qurumu "Milli Şura"nın sədri Cəmil Həsənli hələ də kirli vasitələrlə dövlətçilik maraqlarımıza qarşı təxribatçı planlar üzərində işləyib siyasi uğur qazanacaqları xəyalları ilə yaşayırlar. Ancaq bu xəyanətkarlar, onu bilməlidirlər ki, onların əməlləri ictimaiyyət qarşısında ifşa olunur. Xalqımızın və dövlətimizin adına yalnız ləkə və mənfi rəy qazandırmağa çalışan bu cür satqınların əməlləri onların ermənilər qədər düşmənçilik mövqelərini aşkar şəkildə üzə çıxarır.

Bütün bunlara baxmayaraq, bu gün Azərbaycan demokratik inkişaf yolunda inamla irəliləyir və hər bir vətəndaşın öz mövqeyini açıq şəkildə ifadə etməsi üçün hər cür şərait yaradılmışdır. Ancaq bu, heç də hər hansı bir şəxsə yalan və böhtanla məşğul olmağa, ölkəmizin əleyhinə fəaliyyət göstərməyə imkan verməsi kimi başa düşülməməlidir. Bir də ölkə müxalifəti yalnız AXCP, "Milli Şura"dan və Müsavatdan ibarət deyil. Digər müxalifət partiyaları da var ki, onlar öz siyasətlərini normal şəkildə apararaq, dövlətçilik maraqlarına zidd hərəkətlərə yol vermir və həmin müxalifəti düşərgə tərəfi hesab etmir, xəyanətkar və satqın adlandırırlar.

### Onu yemləyən əli dişləyən, adətən, onu təpikləyənin çəkməsini yalayır

Ə.Kərimlinin siyasi karyerası, əslində, sonsuz xəyanətlər, qisaslar və intriqalar toplusudur: o, Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkənin və millətin düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, "maliyyə dəstəsi" və qrantlar qismində paylar alıb, üzərinə öhdəliklər götürüb, sonra hakimiyyətlə danışıqlara can atıb, yenə vədlər verib - amma sonda hamını aldatmağa çalışıb. Çünki bu, o Ə.Kərimlidir ki, onu yemləyənin əlini dişləyir, təpikləyənin çəkməsini yalayır.

Çünki AXCP sədrinin və onun ətrafının son 24 ildəki yaşamı hakimiyyət yanğısı ilə yaşayaraq, ölkəmizin düşmənləri ilə ittifaq qurur. Ancaq bütün bunlara baxmayaraq, faktlar sübut edir ki, Ə.Kərimlinin siyasi ölümü yaxındadır. Bu dəfə o öz siyasi əcəlindən qurtula bilməyəcək və zamanla tale isə belələrinə qarşı amansız olur.



## YAP Abşeron rayon təşkilatı "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində yaşıllaşdırma işləri aparıb

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar YAP Abşeron rayon təşkilatı "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində Abşeronda növbəti ağacəkmə aksiyası keçirib.

Aksiyada YAP Abşeron rayon təşkilatının Şura üzvləri, Qadınlar Şurasının və Gənclər Birliyinin fəalları iştirak ediblər. Rayon ərazisində park və bağlarda, xiyabanlarda yeni ağaclar və gül kolları əkilir, ərazidə təmizlik işləri aparılır, ağaclara aqrotexniki qulluq göstərilir.

Qeyd edək ki, aksiya zamanı ümumilikdə 1000 ədəd ağac əkilib və onlara qulluq göstərilib.

# İnformasiya texnologiyaları sahəsində yeni hədəflər



***Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində, son illər ölkəmiz dinamik inkişaf edib, regionun aparıcı dövlətinə çevrilib. Ölkədə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları, aparılan islahatlar və yeni layihələrin icrası ölkənin inkişafı üçün geniş imkanlar açıb. Bu inkişaf nəticəsində müasirləşən, modernləşən Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant idman ölkəsi, eyni zamanda, innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb.***

Təbii ki, informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi. Ölkəmiz haqqında dünyaya dolğun məlumatların çatdırılmasında xüsusi rola malik olan bu sahəyə, Ulu Öndər Heydər Əliyevin ayırdığı diqqətin məntiqi nəticəsidir ki, Onun Sərəncamı ilə təsdiqlənən "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" qarşıya qoyulan məqsədlərə çatmaq üçün geniş yollar açmış oldu. Milli Strategiya rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı. Belə ki, Azərbaycan Prezidentinin 2005-ci il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Belə ki, bu sənəd ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu. Azərbaycan Prezidentinin "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman isə İKT sektorunun inkişafına münbit zəmin yaratdı. Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

## AZƏRBAYCANIN ELMİ-TEXNİKİ VƏ İQTİSADİ QÜDRƏTİNİN TƏNTƏNƏSİ

Azərbaycan iqtisadi qüdrəti ilə seçildiyi kimi, innovativ texnologiyalardan istifadə imkanları ilə də fərqlənir. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi və cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər davamlı olaraq həyata keçirilir. Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

## "BAKUTEL" SÜRƏTLƏ İNKİŞAF EDƏN TEXNİKİ NAİLİYYƏTLƏRƏ HƏSR OLUNMUŞ SƏRGİDİR

Prezident İlham Əliyev tərəfindən müəyyən edilən yeni inkişaf strategiyası, digər sahələr kimi, informasiya texnologiyaları sahəsində də yeni hədəflərə doğru inkişafa yol açır. Telekommunikasiya və İnformasiya Texnologiyalarının inkişafı bu gün paytaxt Bakını bir həftəlik informasiya texnologiyalarının paytaxtına çevirib. Belə ki, ölkəmizdə Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi və Konfransı keçirilir. Artıq 23 ildir regionun ən vacib İKT hadisələrindən olan "Bakutel" sərgisi bu sahənin adamlarını bir araya toplayır. Tədbirdə 20 ölkədən, o cümlədən, Rusiyadan 190-dan artıq şirkət iştirak edir. Bunlar mobil operatorlar, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distribüterləridir. "Bakutel" yeni texnologiyalar və həllər üçün maraqlı məkandır. Sərgidə şirkətlərlə yanaşı, startaplar da yeni layihələr təqdim edirlər. Sərgi çərçivəsində 20 məhsul təqdim olunur. Bu məhsullar arasında düz qamətin formalaşdırılmasına kömək edən "Spinal" qurğusu və mobil tətbiqi, Azərbaycan apteklərində lazımi dərman preparatını asanlıqla və istənilən vaxt tapmaq üçün "Tabletka.az" tətbiqi, Azərbaycanda ilk və yeganə ekoloji təmiz "VeloKuryer" kuryer şirkəti, əllə çəkilmiş istənilən eskizi smartfona göndərən və müvəqqəti mürəkkəbi olan "Wand" qələmi, eləcə də, milli komiks, oyuncaq, animasiya və vətənpərvərlik ruhunda videoların hazırlanması istiqamətində iş aparan "İRS Cizgi" komandasının məhsulları yer alır. Müasir texnologiya sayəsində əlavə avadanlıq olmadan, bir xətt üzərindən əhaliyə telefon, internet və televiziya xidmətləri göstərilir. Eyni zamanda, dördüncü nəsil simsiz rabitə texnologiyası üzərindən xidmət də həyata keçirilir. Bakıda və Xaçmazın 4 kəndində bu texnologiya test qaydasında tətbiq edilib. Bir il ərzində layihə Abşeron yarımadasını da əhatə edəcək. "İctimai İnternet" layihəsi çərçivəsində 18 məkan pulsuz internetlə təmin olunub. Avropada 1 internet provayderinin təmin etdiyi ən geniş pulsuz "Wi-Fi" zonası Bakıdadır. Bu sahənin inkişafı sahəsində 2019-cu ildən etibarən veriləcək yeni nəsil şəxsiyyət vəsiqələrində vətəndaşlar "Elektron imza" sertifikatı ilə təmin olunacaqlar. Bunun üçün müvafiq infrastruktur artıq hazırdır. Gələn ildən "Elektron imza"ların dövlətlərarası qarşılıqlı tanınması prioritet istiqamətlərdən olacaq. Bu imzanın aktiv istifadə edilə biləcəyi məkan "Elektron Hökumət" portalıdır. Hazırda bu portal vasitəsilə vətəndaşlar 89 dövlət və qeyri-dövlət qurumunun xidmətlərindən yararlana bilirlər. Ümumilikdə, bu il portala 40 yeni xidmət əlavə olunub. Görmə qabiliyyəti məhdud olan insanlar üçün hazırlanan "Danışan Kitabxana"ya Heydər Əliyev Fondunun təşəbbüsü ilə 200 kitab əlavə edilib.

Bütün bunlar göstərir ki, Azərbaycan dinamik inkişaf edən ölkədir və informasiya texnologiyaları sahəsində də uğurlara imza atıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi üzrə səyyar xidmətlər davam etdirilir



Daxili İşlər Nazirliyi rəhbərliyinin tapşırığı ilə ölkəmizin şəhər və rayonlarında şəxsiyyət vəsiqələrinin verilməsi və etibarlılıq müddəti bitmiş sənədlərin yeniləri ilə dəyişdirilməsi üzrə səyyar xidmətlər davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, bu işin daha da sürətləndirilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyan belə tədbirlər Şəki Şəhər-Rayon Polis Şöbəsi, Zaqatala və Balakən Rayon Polis şöbələrinin qeydiyyat və şəxsiyyət vəsiqəsi bölmələri tərəfindən keçirilib. Səyyar xidmət zamanı rayonların əsasən ucqar kəndlərində yaşayan sakinlərinə yeni şəxsiyyət vəsiqələri verilib və yaxud müddəti bitmiş şəxsiyyət vəsiqələri yeniləri ilə əvəz olunub. Ümumilikdə cari ilin doqquz ayı ərzində keçirilən səyyar xidmətlər nəticəsində Şəki Şəhər-Rayon Polis Şöbəsinin qeydiyyat və şəxsiyyət vəsiqəsi bölməsinin əməkdaşları tərəfindən rayon üzrə ümumilikdə 6002, Zaqatala Rayon Polis Şöbəsinin analoji xidmət əməkdaşları tərəfindən 682, Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən isə 4764 nəfərə şəxsiyyət vəsiqələrinin verilməsi təmin olunub. Bu istiqamətdə tədbirlər davam etdirilir.

## Rəcəb Tayyib Ərdoğan: Tramp BMT-nin Qüds barədə qərarını tapdaladı



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ lideri Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasını sərt tənqid edib, onu BMT-nin Qüds barədə qərarına məhəl qoymamaqda təqsirləndirib. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, Ərdoğan Yunanıstana rəsmi səfər öncəsi Esenboğa hava limanındakı çıxışında ABŞ Prezidentinin bu addımını dünyanı, xüsusən regionu atəş girdabına atmaq kimi səciyyələndirib. "Mən Trampın bəyanatı ilə əlaqədar nəinki İslam ölkələrinin, eyni zamanda, Qərb ölkələrinin liderləri və Roma papası ilə telefon danışıqları aparıram. Bu məsələni Vladimir Putinlə də müzakirə edəcəyəm. Çünki bu mövzu nəinki müsəlmanlara, həmçinin hamıya aiddir", - deyə Türkiyə Prezidenti vurğulayıb. Onun sözlərinə görə ABŞ Qüdsə dair "BMT-nin indiyə qədər heç kimin pozmadığı 1980-ci il qərarını tapdalayıb".

"Trampın nə etmək istədiyi aydın deyil. O, hazırda bütün regionu qarışdıran mikser rolunu oynayır. Qüds müsəlmanlar, xristianlar və yəhudilər üçün müqəddəs yerdir. Atılan addım əsasən də bu regionda alışan kibritə bənzəyir. Liderlər münaqişələri alovlandırmamalı, əksinə sülhü bərqərar etməlidir. Əgər Tramp güclü olduğu üçün doğru olduğunu hesab edirsə, yanılır. Güclü olmaq, doğru olmaq demək deyil", - deyə Türkiyə lideri əlavə edib.

# Razılaşma regionda sabitlik və təhlükəsizliyi daha da möhkəmləndirəcək



***Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi hesab olunur və dənizin strateji önəmini artıran amillər onun zəngin karbohidrogen ehtiyatlarına malik olmasıdır. Xəzərin hüquqi statusu uzun illər Rusiya (SSRİ) və İran arasında bağlanmış ikitərəfli müqavilələrlə tənzimlənirdi. Bu müqavilələrlə Rusiyaya Xəzərdə böyük imtiyazlar verilirdi.***

SSRİ-nin süqutundan sonra Xəzərsahili dövlətlərin sayının ikidən beşə yüksəlməsi Xəzər dənizinin hüquqi statusuna yenidən baxılmasını zəruri etdi. 1992-ci illərdən başlayaraq, Xəzərsahili dövlətlərin ikitərəfli və çoxtərəfli görüşlərində Xəzərin hüquqi statusu məsələsi ilə bağlı müzakirə və danışıqlar başladı. Bununla da, Xəzərin hüquqi statusunun həllində fərqli mövqelərinin ortaya çıxması ilə günümüzə qədər davam edən status məsələsinin müzakirəsinə start verildi. Hüquqi status məsələsinin sonrakı müzakirələri də, göstərdi ki, Xəzərin hüquqi statusu məsələsinə hər bir dövlət fərqli yanaşır və bu zaman daha çox beynəlxalq-hüquqi normalara deyil, milli maraqlara söykənilir. Ümumiyyətlə, götürdükdə Xəzərin beynəlxalq-hüquqi statusu bəzi Xəzərətrafı ölkələr tərəfindən uydurulmuş bir problemdir. Təbii ki, bu problem, birinci növbədə Sovet postimperial dövlətləri tərəfindən, Xəzərin resurslarına olan maraqdan doğur. Məsələn, Rusiya və digər yeni yaranmış Xəzərətrafı ölkələr arasındakı əngəl dənizin neft ehtiyatlarıdır. Məhz buna görə də, Xəzər hövzəsinin gələcək dünya siyasətindəki geosiyasi yeri və mövqeyi, dənizin təbii enerji qaynaqlarının, bioresurslarının istifadəsi, hovzədə dövlətlərarası münasibətlərin qurulması, idarə olunması və bu kimi digər mühüm geostrateji məsələlərdə bölgə ölkələri fərqli təklif və mülahizələrlə çıxış edir.

Xəzər hövzəsində transmilli enerji layihələri ilə bağlı ilk təklif Azərbaycana məxsusdur. Amma 1992-1993-cü illərdə Azərbaycanın Xəzər dənizində xarici transmilli şirkətlərlə birgə enerji layihələri həyata keçimək istəyini bəyan etməsi dərhal bəzi bölgə ölkələrinin etirazı ilə qarşılandı. Azərbaycanın Xəzərlə bağlı gələcək geoiqtisadi niyyətləri açıqlanar-açıqlanmaz Xəzərsahili ölkələr buna etiraz etməyə və öz etirazlarını müxtəlif amillərlə əsaslandırmağa cəhd göstərdilər. Əslində, bu məsələnin "mühümlüyünü" şərtləndirən əsas amil, bütün qüvvəsi ilə Azərbaycanın öz xarici tərəfdaşlarıyla dənizdə reallaşdırdığı və həyata keçirmək istədiyi nəhəng enerji layihələrinə mane olmaq, xüsusən də, bu işə qoşulmaq istəyən ölkələrin Xəzər hövzəsinə daxil olmasının qarşısını almaq, bu məsələni süni şəkildə şişirtmək və təkidlə gündəmə gətirməkdən ibarətdir.

Sonrakı illərdə Xəzərin statusu ilə bağlı yeni-yeni manevrlər planlaşdıranlar heç bir nəticəyə nail ola bilmədilər və yəqin edildi ki, sonda Azərbaycanın ədalətli, haqlı və prinsipial mövqeləri ilə barışmaq məcburiyyətindədirlər.

## Moskvada Xəzərin hüquqi statusu ilə bağlı yekun Konvensiya müzakirə edildi

Bu ilin 4-5 dekabr tarixində Moskvada Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin iştirakı ilə görüş keçirildi və Xəzərin hüquqi statusu ilə bağlı yekun Konvensiya və Xəzəryanı ölkələrin dövlət başçılarının görüşünə hazırlıq məsələsi müzakirə edildi. Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistanın xarici siyasət idarələrinin başçılarının sayca yeddinci olan budəfəki görüşündə əsas diqqət, Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya, habelə, Xəzərdə iqtisadiyyat, nəqliyyat, hərbi dənizçilik, brakonyerliyə qarşı mübarizə, gəmiçiliyin təhlükəsizliyinin təmin edilməsi sahələrində əməkdaşlıq və bəzi başqa məsələləri tənzimləyən sənədlər üzərində cəmləşdirildi. Ən aktual regional və beynəlxalq problemlərə dair fikir mübadiləsi aparılan müşavirənin əsas məqsədi, gələn il Qazaxıstanda keçiriləcək Beşinci Xəzər Sammitinə hazırlıqdır. Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın mətninin tezliklə razılaşdırılması və Xəzər boyunca yerləşən qonşu ölkələrin qarşılıqlı faydalı əlaqələrinin daha da genişləndirilməsi görüş iştirakçıları üçün ən prioritet məsələ hesab olunur.

Rusiya xarici işlər naziri Sergey Lavrov Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin Moskvada baş tutan toplantısından sonra keçirilən mətbuat konfransında söylədiklərindən, aydın olur ki, Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyada açıq qalan bütün əsas məsələlərlə bağlı əldə edilən nəticələrdən məmnundur. Təbii ki, bu məmnunluq Rusiyanın mövqeyini, daha dəqiq desək, razılığını ifadə edir və bu da, öz növbəsində, müzakirə olunan məsələlərin təmsil etdiyi dövlətin maraqlarına uyğun olmasından xəbər verir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov isə, Qazaxıstanda keçirilməsi planlaşdırılan Xəzəryanı ölkələrin dövlət başçılarının 5-ci Zirvə toplantısına qədər bütün açıq qalan məsələlər üzrə konsensusun əldə edilməsi üçün maksimum səylərin göstərilməsinin zəruri olduğunu diqqətə çatdırır. Ötən dövr ərzində danışıqlar prosesinin iştirakçıları tərəfindən konvensiya layihəsi üzrə mühüm işlər görüldüyünü bildirən E.Məmmədyarov, yüksək səviyyəli beştərəfli görüşlər zamanı qəbul edilmiş qərarların və əldə edilmiş razılaşmaların bütün Xəzəryanı dövlətlərin mövqelərinin mühüm dərəcədə yaxınlaşdırılması, ümumilikdə, danışıqlar prosesinə güclü təkan verdiyi və mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi, məhsuldar əməkdaşlıq və Xəzər regionunda sabitliyin qorunub saxlanması üçün tarixi əhəmiyyət kəbs etdiyini vurğuladı.

## Xəzəryanı dövlətlərin səylərinin birləşdirilməsi hər zaman öz aktuallığını qoruyur

Xəzər dənizində qarşılıqlı münasibətlərin möhkəm təməlini təşkil edən, dövlətlərin qarşılıqlı fəaliyyəti və əməkdaşlığı üçün hərtərəfli hüquqi əsas hesab olunan Konvensiya layihəsi, sözsüz ki, Xəzər regionunda sabitlik və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcək. Xüsusilə, terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, silahların, narkotik maddələrin qanunsuz dövriyyəsi və insan alveri, həmçinin, beynəlxalq və regional stabillik, təhlükəsizliyə çağırış və təhdidlərə qarşı mübarizədə bütün Xəzəryanı dövlətlərin səylərinin birləşdirilməsi hər zaman öz aktuallığını qoruyur. Xəzər dənizi xalqlarının rifahına və dünya enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir və buna görə də, ticari-iqtisadi və mədəni əlaqələrin daha da genişləndirilməsi, habelə, biznes və turizminin inkişafına zəruri şəraitin yaradılması üçün sülh, sabitlik və təhlükəsizlik məkanı kimi Xəzər dənizinin qorunması üzrə birgə səylərin bundan sonra da davam etdirilməsi əhəmiyyətli dərəcədə vacibdir.

***İnam HACIYEV***

# Ermənistan reallığı: iqtisadi çöküş və sürətli inflyasiya

Ermənistanın yerli informasiya mənbələrinin verdiyi məlumatlara, eləcə də, sosial şəbəkələrdə dərc edilən məqalələrdəki fikirlərə görə, artıq 2017-ci ilin əvvəllərindən müşahidə olunan bahalaşma davam edərək, daha da artıb və 2018-ci ildə bu faktor daha da dərinləşəcək. Ekspertlər tendensiyanın bu cür davam edəcəyi təqdirdə, bahalaşmanın bütün sferalarda total xarakter alacağını proqnozlaşdırırlar. Çünki adi iqtidası dəlillər də, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır. Aydın məsələdir ki, istehlak qiymətlərinin artması və inflyasiyanın dərinləşməsi ilə yoxsulluğun səviyyəsinin yüksələcəyini deməyə əsas verir. Elə beynəlxalq maliyyə institutlarının, iqtisadi araşdırma və proqnozlaşdırma mərkəzlərinin zaman-zaman Ermənistanla bağlı verdikləri rəy və açıqlamalardan da, görünür ki, işğalçı ölkədə yoxsulluğun səviyyəsinin artacağı durmadan davam edəcək.

Bir neçə il öncə, Dünya Bankının Avropa və Mərkəzi Asiyada Yoxsulluğun Azaldılması və İqtisadi Siyasət Departamentinin direktoru İvonna Sikata bəyan etmişdi ki, keçmiş Sovet respublikalarının 5-də yoxsulluğun səviyyəsinin xeyli yüksəlməsi mümkündür: "Bunlar Ermənistan, Qırğızıstan, Moldova və Tacikistandır. Region əhalisinin yoxsul hissəsi yüksək inflyasiyadan, ərzaq və enerji daşıyıcılarının qiymətlərinin yüksək olmasından əziyyət çəkir". Beləliklə, sözügedən proqnoz özünü artıqlaması ilə doğruldub, xüsusilə Ermənistanda... Onu da qeyd edək ki, ağır iqtisadi vəziyyət, həyat şəraiti, yoxsulluğun səviyyəsinin yüksəlməsi və inflyasiyanın sürətlənməsi Ermənistanda sosial qiyamın baş verməsini əsaslandırır. Beynəlxalq qurumlarda da bu barədə bir neçə dəfə vurğulanıb. Məsələn, Avropa Şurası Parlament Assambleyasının Ermənistan Məsələləri üzrə Monitorinq Komitəsinin həmməruzəçiləri Ermənistan hökumətini ölkədə "islahatlar proqramları"nı həyata keçirməyə çağırıb. Onların sözlərinə görə, əks halda ölkədə sosial-siyasi vəziyyət sosial üsyanlara gətirib çıxara bilər. Həmməruzəçilərin hesabatından belə məlum olur ki, qanunvericilikdə təşəbbüslərin olması yetərli deyil, bütün bunlar qüvvədə olan siyasətdə və təcrübədə nümayiş etdirilməlidir. Həmməruzəçilərin bəyanatında, həmçinin, deyilir ki, Ermənistanda baş vermiş "Sasna-Srer" hadisələri zamanı insanların həbsdə olması, ölüm faktlarının lazımınca araşdırılmaması Ermənistanın siyasi mühitinə həl də mənfi təsir göstərməkdədir. Təbii ki, bütün bunlar da, Ermənistanda qarşıdan gələn seçkilərə də mənfi təsir göstərəcək. Nəticədə, ölkədəki seçkilərlə bağlı olan vəziyyət siyasi narahatlıqlar doğurur və sosial və iqtisadi mühitə mənfi təsir edir ki, bu da sonda sosial qiyama gətirib çıxara bilər. Məruzəçilər hesab edirlər ki, əgər tez bir zamanda ölkədə vəziyyət düzəlməsə və ya daxili siyasi proseslərdə irəliləyişlər olmasa, mövcud vəziyyət daha da pisləşə bilər. Bunun isə, bir çıxış yolu var, o da demokratik və şəffaf seçkilərin keçirilməsidir: "Seçki ilə bağlı hazırkı siyasi qütbləşmə və sosial-iqtisadi vəziyyətin pisləşməsi sosial qiyama aparıb çıxara bilər. Vəziyyət düzəlməsə, şəffaf və demokratik seçki keçirmək də mümkün olmayacaq".



Ermənistandakı gərgin vəziyyət xarici şirkətlərin ölkəni tərk etməsi prosesini də tezləşdirib. Yerli KİV-in məlumatına görə, ABŞ hökumətinin "Minilliyin çağırışı" Korporasiyası Ermənistanda proqramların maliyyələşdirilməsini dayandırıb və bu hal davam edir. Bir sıra beynəlxalq maliyyə qurumlarından da birlidilir ki, maliyyələşmə, yalnız rəsmi Yerevanın çatışmazlıqları aradan qaldırdığı təqdirdə, bərpa oluna bilər. Çatışmazlıqlar arasında mətbuat azadlığı sahəsindəki problemləri, seçkilərdəki nöqsanları və mitinqlərin keçirilməsinə yaradılan maneələri göstərib: "Bu, Ermənistan hökumətinin tələblərimizə cavab verməyən bəzi göstəriciləri qaydaya salmasına stimul ola bilər". Bu arada erməni siyasətçisi David Şahnazaryan keçirdiyi mətbuat konfransında bildirib ki, bir sıra beynəlxalq ekspertlərin proqnozlarına görə, yaxın vaxtlarda Ermənistan ciddi iqtisadi problemlərlə üzləşəcək: "Hakimiyyət isə gərginliyin azaldılması üçün heç bir tədbir görmür. Onların siyasəti miqrasiyanın daha da genişlənməsinə yönəlib. Bu, hakimiyyətə sərf edir. Çünki hökumət hesab edir ki, ölkəni, əsasən, müxalifət tərəfdarları tərk edir".

Beləliklə, fakt ortadadır və Ermənistanın sonunun yaxınlaşması göz önündədir. Hakimiyyət daxilindəki böhran da bu prosesi sürətləndirməkdədir.

***Rövşən RƏSULOV***

# Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti istismara verildikdən sonra nəqliyyat tarifləri aşağı salınacaq

Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti istismara verildikdən sonra yük daşımalarına tətbiq olunan nəqliyyat tarifləri aşağı salınacaq. Bu barədə AZƏRTAC-a məlumat verən İran Dövlət Dəmir Yolları İdarəsinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Hoseyn Aşuri bildirib ki, İran, Azərbaycan, Rusiya və Belarus tariflərin aşağı salınması haqqında razılıq əldə ediblər. Onun sözlərinə görə, tariflərin aşağı salınması "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətini tənzimləyəcək və onu Cənub-Şərqi Asiya ölkələri üçün daha da cəlbedici edəcək. H.Aşuri deyib ki, Qəzvin-Rəşt dəmir yolunun davamı olacaq Rəşt-Astara xəttində işlər davam edir. Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti isə dekabrın sonunda istifadəyə veriləcək.

# Qərb müxalifətin "çaldığı hava" ilə oynamır

*Yaxud bir sıra Qərb siyasi institutları zəif müxalifətlə müqayisədə güclü Azərbaycan iqtidarı ilə yaxınlaşmanı daha real qərar kimi qəbul edirlər*



**Ölkədə cərəyan edən son proseslərı incələdikcə, ənənəvi müxalifət düşərgəsinin daim dəstək axtardığı bəzi Qərb siyasi dairələri də artıq onlardan əlini üzüb və düşərgəyə arxa çevirmək niyyətində olduqlarını müxtəlif vasitələrlə nümayiş etdirməkdədir. Görünən budur ki, Qərb siyasi dairələri, xüsusilə Avropanın aparıcı təşkilatları Azərbaycanda bu və ya digər şəkildə siyasi maraqlarını təmin edə bilməyəcəklərini dərk edir, nəticə etibarilə hakimiyyətlə əməkdaşlıq üçün yeni yollar axtarırlar. Əbəs yerə deyil ki, bəzi ermənipərəst təşkilatları çıxmaq şərti ilə ciddi siyasi ağırlığa malik olan Qərbin öndəgedən siyasi institutları Azərbaycanda keçirilən seçkilərin nəticələrini tanımaqla yanaşı, sözügedən prosesin Avropa dəyərlərinə tam şəkildə cavab verdiyini dəfələrlə bəyan ediblər.**

### Qərb institutları anlamağa başlayıblar ki...

Bu faktorun özü belə qənaətə gəlməyə zəmin yaradır ki, Qərb və Avropanın siyasi dairələri Azərbaycanla təzyiq dilində danışmağın əbəs olduğunu dərk edir, daha demokratik və sivil üslübda əməkdaşlıq etmək istəyini ortaya qoyurlar. Əlbəttə ki, belə bir faktorun yaranmasında əsas güc, məhz Azərbaycan hakimiyyəti tərəfindədir. Qətiyyətli siyasət, dəyişilməz mövqe və xalqın dəstəyi Qərbin yeni yollar axtarışına çıxmasına zəmin yaratmış oldu. Daha bir məqam, bayaq da qeyd olunduğu kimi, müxalifətin Qərbə bağlı olan rıçaqlarını itirməsi faktlarıdır. Artıq aydın görünür ki, 23 illik müxalifətçiləri dövründə düşərgədə fəaliyyət göstərən "liderlər" olduqları kimi qalmaqda davam edirlər. Sadəcə, ssenariləşdirilmiş nəticələri öncədən bəlli olan və saxta qurultaylar keçirib, partiyalara yeni sədrlərin (halbuki onlar da 24 illik (!!!) dövrün içindədirlər-R.N.) gətirilməsi isə, heç bir demokratiya nümunəsi kimi göstərilə bilməz. Adi partiyadaxili seçkilərdə belə saxtakarlıqlara, qarşıdurmalara, kəskin ziddiyyətlərə yol verən müxalifət "liderləri"nin hakimiyyətə yiyələndikləri vaxt daha betər saxtakarlıqlara və qanunsuzluqlara yol verəcəklərini Qərb institutları anlamağa başlayıblar. Radikalizm, dağıdıcılıq və şəxsi mənafenin təminatı üçün istənilən addıma getməyə hazır olan bu cür müxalifət isə, beynəlxalq siyasi arenada qəbul olunmur. Ancaq mövcud hakimiyyət Qərb üçün hər cür şərait yaratmaqla, əməkdaşlığa açıq olduğunu, inkişaf və tərəqqinin tərəfdarı kimi çıxış etdiyini nümayiş etdirməklə öz baxışlarını bəyan edib. Belə olan məqamda, digər maraqdoğurucu məsələlər də nəzərə çarpmağa başlayır.

### Politoloq: "İlham Əliyevin simasında güclü siyasətçi görüb, onunla əməkdaşlığa qərar verdilər"

Bu arada politoloq Qabil Hüseynlinin mövcud faktorla -Qərbin Azərbaycan hakimiyyəti ilə əməkdaşlıqda maraqlı görünməsi amili ilə bağlı fikirləri maraq doğurur. SİTAT: "Qərbin özünün ciddi siyasi-iqtisadi maraqları var. Bu maraqlar Cənubi Qafqaz bölgəsini əhatə edir. Maraqların təmin edilməsi üçün Qərbin Azərbaycanda hakimiyyətlə əlaqələrə önəm verməsinə təəccüblənmək lazım deyil. Çünki Qərb görür ki, ölkədə siyasi sabitlik mövcuddur, iqtisadiyyatda müəyyən qüsurlar olsa da, inkişaf artan xətlə gedir. Ölkə başçısı İlham Əliyev balanslaşdırılmış siyasət yeritməklə, dünya gücləri ilə ümumi dil tapa bildi. Onlar da İlham Əliyevin simasında güclü siyasətçi görüb, onunla əməkdaşlığa qərar verdilər. Bu əməkdaşlıq da son illərdə artıb". Məhz bu kimi reallıqlardan çıxış edərkən, nəticəyə gəlmək mümkündür ki, heç bir təzyiq, təhdid və s. kimi bənzər çıxışlar Azərbaycan hakimiyyətinin qətiyyətinə qarşı tab gətirə bilməz. Bir sıra xarici QHT statusunda olan və məqsədləri illərdir bəlli olan bir neçə "insan hüquqlarını müdafiə" və s. qurumları çıxmaqla, müxtəlif Qərb siyasi institutları, nüfuzlu siyasi dairələr zəif müxalifətlə müqayisədə güclü Azərbaycan iqtidarı ilə yaxınlaşmanı daha real qərar kimi qəbul edirlər.

**R. RƏSULOV**



***2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkiləri fonunda dağıdıcı müxalifət düşərgəsində AXCP ilə Müsavat arasındakı soyuq münasibətlərin daha da qızışaraq, kəskin gərginlik halına çatması ilə bağlı fikirlər səngimir. Düşmənçilik və soyuq münasibət amili, artıq neçənci dəfədir sübut edir ki, adıçəkilən siyasi təşkilatlar arasındakı vəziyyət bundan sonra da yaxşılığa doğru dəyişməyəcək. Necə deyərlər, illərin praktikası belə deməyə əsas verir.***

# AXCP-"Milli Şura"-Müsavat düşmənçiliyi davam edir

*Sərdar Cəlaloğlu: "Azərbaycan müxalifətinin bu xəstəliyi hələ də qalmaqdadır"*

### Nurəddin Məmmədli müsavatçıların cəbhəçilərə qarşı düşmənçilik mövqeyi sərgilədiklərini iddia edir

AXCP sədri Əli Kərimlinin müavinləri Fuad Qəhrəmanlı və Gözəl Bayramlı, həbs olunmamışdan əvvəl, Müsavat partiyasına qarşı yönəlmiş ittihamları, ayrı-ayrılıqda AXCP-nin müsavatçılara qarşı yeni hücum taktikasının olduğunu göstərir. Hər halda, Kərimli və ətrafında olanlar bu gün də Müsavatın onlarla bir yerdə olmaqdan imtinası ilə barışmadıqlarını, hətta barışmayacaqlarını aşkar şəkildə sərgiləməkdədirlər. Ümumiyyətlə, bu proses özünü dəfələrlə təkzibedilməz şəkildə təkrar edib. Məsələn, AXCP-nin sədr müavini, "Milli Şura"nın üzvü Nurəddin Məmmədli mətbuatda açıqlamasında bildirir ki, "bir sıra partiyaların təmsilçiləri (burada müsavatçılar əsas götürülür-red.) AXCP üzvlərinə qarşı əsl düşmən kimi davranırlar".

Maraqlı məqam budur ki, N.Məmmədli AXCP-nin Müsavata münasibəti barədə heç nə deməyib. Əcəba, nəyə görə? Əslində, bu da bəllidir...

### Mustafa Hacıbəyli isə cəbhəçilərin müsavatçılara qarşı mübarizə apardıqlarını deyir

Məhz belə bir məqamda, Müsavat partiyasının üzvləri də qarşı tərəfə cavabı gecikdirməyərək, bildiriblər ki, əslində, AXCP-"Milli Şura" bu vasitəylə Müsavata qarşı hücuma keçib və qeyd edilib ki, cəbhəçilər mənəmmənəmliklə məşğul olmaqdadırlar. Bununla AXCP və "Milli Şura"nın Müsavatın bostanına atdığı daşı geriyə qaytaran müsavatçılar dolayı yolla düşmən münasibətində olduqları cəbhəçilərə qarşı ittihamlarını davam etdiriblər. Misal üçün, Müsavat funksioneri Mustafa Hacıbəyli deyir: "Çox təəssüflər olsun ki, bəzi siyasi partiyalar, yəni AXCP və ya "Milli Şura" mübarizəsini müxalifətin daxilinə daşıyır, bunun üçün işləyir, mübarizəni Müsavatla aparır".

Partiyalararası qarşıdurmada ən maraqlı məqam isə müsavatçıların belə bir qarşıdurma və savaş əsnasında yenidən Müsavatı "ana müxalifət partiyası" qismində təqdim etmələridir. Belə ki, müsavatçı funksionerlər Ə.Kərimlinin və ətrafının insanlara yalan danışdığını və çaşqınlıq yaratmaq istəyənlərin toplaşdığını bildiriblər.

### ADP sədri: "Ayrı-ayrı partiyaların bir-biri ilə "ana müxalifət mənəm" yarışı keçirməsi lazım deyil"

Bu arada AXCP və Müsavat arasında yaşanan yeni və daha gərgin böhrana digər müxalifət partiyalarından da münasibətlər bildirilməkdədir. ADP sədri Sərdar Cəlaloğlu AXCP ilə Müsavat arasındakı qarşıdurmaları, önə keçmək istəyinin ifadəsi kimi qiymətləndirib. ADP sədri də, hesab edir ki, müxalifət birincilik uğrunda mübarizə aparır: "...Ayrı-ayrı partiyaların bir-biri ilə "ana müxalifət mənəm" yarışı keçirməsi lazım deyil...Azərbaycan müxalifətinin bu xəstəliyi hələ də qalmaqdadır. Təbii ki, bu da, çox yanlış addımdır". S.Cəlaloğlu onu da qeyd edib ki, istər Müsavat, istərsə də AXCP, keçirdikləri aksiyalarında insanların sayını şişirtməklə, siyasi reytinq qazanmağa cəhd etmələri yanlışlıqdır. Ortada heç bir iddia özünü təsdiq etməməklə yanaşı, reallıq budur ki, 2018-ci il onlar üçün son il olacaq.

**RÖVŞƏN**

# Müxalifət tam şəkildə tükənib

*Teyyub Qənioğlu: "Müxalifət xalq tərəfindən qəbul edilmir"*

***Müxalifətin daxili qarşıdurmaları getdikcə daha amansız və idarəolunmaz hal almaqdadır. Bu isə düşərgədən yeni istefaların və qopmaların baş verəcəyindən xəbər verir. Çünki hər dəfə çəkişmələr və qarşıdurmalar gərgin xarakter alarkən, yeni istefalar baş verir.***

Baxmayaraq ki, hazırkı məqamda İsa Qəmbər və Pənah Hüseyn müxalifətdaxili birliyə nail olmaq üçün müxtəlif ideya və təkliflərlə çıxış edirlər. Hətta ötən həftə Müsavat qərargahında müxalifətin birgə toplantısı təşkil edildi. Amma AXCP sədri Əli Kərimli, ADP sədri Sərdar Cəlaloğlu, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli toplantıya qatılmaqdan imtina etdilər. Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirdi



ki, müxalifətin pozulmuş ahəngini hansısa iclas və yığıncaqlarla aradan qaldırmaq mümkün deyil: "Müxalifət xalq tərəfindən qəbul edilmir. Cəmiyyətin onlara dəstəyinin olmamasını da müxalifət tərəfindən keçirilən son uğursuz mitinqlər bir daha sübut etdi. Ümumiyyətlə, radikal müxalifət öz məqsədlərinə çatmaq üçün sosial şəbəkələrdə çıxış etməklə, insanları itaətsizliyə və qarşıdurmalara çağırır. Onsuz da onların bu çıxışları heç bir nəticə verməyəcəkdir. Çünki Azərbaycan cəmiyyəti müxalifət tərəfindən səslənən anormal çağırışlara əhəmiyyət vermir. Çünki cəmiyyət dağıdıcı müxalifəti çox yaxşı tanıyır. Müxalifətlər bu cür yersiz hərəkətlərə əl atmaqla, bir daha özlərini biabır edirlər. Yaxşı olardı ki, müxalifət partiya sədrləri belə hərəkətlərindən əl çəksinlər".

Partiya sədri onu da bildirdi ki, xarici pozucu qüvvələr hansısa ölkədə öz məkrli və çirkin məqsədlərinə nail olmaq üçün "beşinci kolon" deyilən bir qurum yaratmağa çalışırlar: "Bu "beşinci kolon"a daxil olanlar iki hissəyə bölmək olar. Birinci hissə, fürsət gözləyənlər, yəni heç bir prosesdə iştirak etməyib, sadəcə, fürsət gözləyənlər. Fürsət yaranan kimi, meydana çıxıb, xarici qüvvələrin istəklərini yerinə yetirirlər. İkinci hissəsi isə, radikallardır. Yəni sivil yolla istəklərinə nail ola bilməyib, ara qarışdırmaq və qızışdırmalar yolu ilə məqsədlərinə nail olmaq istəyirlər. Əsasən, xarici qüvvələr ikincilərə daha çox üstünlük verirlər. Yəni bir barmaq işarəsi ilə, bir sifarişlə müəyyən maliyyə dəstəyi müqabilində istəklərini həyata keçirmək üçün "Beşinci kolon" nümayəndələrinə arxalanırlar. Bir sözlə, ölkəmizdə onların hər ikisi var. Yəni "Beşinci kolon"un birinci qrupuna da, ikinci qrupuna da daxil olanlar var".

T.Qənioğlu onu da bildirdi ki, bu gün radikal müxalifət təmsilçiləri gündəmə gəlmək üçün bir bəhanə axtarırlar: "Yəni nə olursa-olsun, radikal müxalifət özünü reklam etməyə çalışır. Ümumiyyətlə, bu gün müxalifət düşərgəsində birinin digərindən üstün olması üçün bir rəqabət gedir. Onlar arasında gedən bu rəqabətdə müxalifət düşərgəsində bir-birilərinə qarşı soyuqluq yaradır. Belə olan halda da, müxalifət düşərgəsində hansısa bir irəliləyişin olmasından söhbət gedə bilməz. Çünki müxalifətdə olanlar heç vaxtı bir-birilərinə qarşı səmimi münasibətdə olmayıblar. Sadəcə olaraq, onlara xaricdən tapşırıq veriləndə, onlar bir ayara gələrək birləşiblər. Bu birləşmələrin ömrü də çox qısa olur".

**GÜLYANƏ**

# Azərbaycan xalqının adət-ənənələri: sınamaların ayaqqabı, at və yuxu vasitəsilə gerçəkləşməsi

***Etnik düşüncədə “sağ tərəf” anlayışının xeyir, uğur, üstünlük anlamı kəsb etməsi Oğuz tayfa sisteminin, təşkilat quruluşunun tarixi səciyyəsi ortaya çıxmış və zaman keçdikcə məişətdə, xalq yaradıcılığında, ilkin məzmun cizgilər şəklində olsa da, qoruyub-saxlaya bilmişdir.***

Bir sınamada deyilir: “Qızdırmalı adam güllə yarasından ölənin qəbri üstündə çimizdirilsə, sağalar”. Bu sınama da etiqadla bağlı çox qədim görüşlərin əlamətlərini özündə yaşadır. Bəllidir ki, güllə yarası alan adam dözülməz ölçüdə təşnə olur. Sınamadakı “güllə” ifadəsi də şərtidir və son dövrlərin ovqatını özündə yaşadır. Çünki odlu silahdan qabaq daş, qılınc, xəncər, qəmə, ümumiyyətlə, soyuq silahlar var imiş və bunlarla da yara almış şəxsin qəlb yanğısı çox olmuşdur.

Bəlli olduğu üzrə, insanlar ruhun ölməz olmasına inanmışlar. Ruhun ölməzliyi təsəvvürü isə, əslində, təfəkkürün varlığa münasibəti məsələsi ilə bağlıdır. Belə ki, “...çox qədimlərdə, insanlar hələ öz bədənlərinin quruluşu haqqında heç bir şey bilmədikləri zamanlarda, onlarda elə bir təsəvvür oyanmışdı ki, öz təfəkkür və duyğuları onların bədənlərinin fəaliyyəti olmayıb, bədəndə yaşayan və öldükdə, onu tərk edən ruhun fəaliyyətidir: hələ o zamandan etibarən insanlar bu ruhun xarici aləmə münasibəti üzərində düşünməli olmuşdular. Əgər adam öləndə, ruh bədəndən ayrılır və yaşamaqda davam edirsə, bu halda, onun üçün xüsusi bir ölüm uydurmağa bir əsas yoxdur” (F.Engels). Odur ki, qədimdə insanlar ölənin yenidən dirilməsi və yaşaması inamında olmuşlar. Buna görə də, ölənin qəbrinə ərzaq, su və s. nəsnələr qoymuşlar. Hətta əski çağlarda qəbirlərin baş tərəfində xüsusi oyuq saxlanılarmış ki, buradan da içəri yemək və su qoyularmış. Sonrakı kəsimlərdə, xüsusən, dinin təsiri ilə bu, adət aradan götürülsə də, qəbirlərə su axıtmaq ayini unutdurula bilməmiş və bu bir az seçilən şəkildə elə indi də davam etdirilməkdədir. Belə ki, ölü torpağa tapşırılandan sonra qəbrin üstündə cızıq açılıb, oraya su axıdılır. Amma bu su yaralanıbölənin susuzluğunu, hərarətini söndürmək üçün azlıq edir. Etiqada görə, ölənin ruhu guya sahibinin yanğısını gətirib sağlam adamın üstünə tökür və həmin şəxs qızdırmalı olur. Bu halda, həmin adamı yaralanmadan ölənin qəbri üstündə çimizdirdikdə, mərhumun susuzluğu ötüşür və ruh hərarəti xəstənin canından qovur.

Xalqda belə bir sınama var: “qapıdakı ayaqqabıları saysan, ailədə ölən olar”, yaxud “yuxuda ayaqqabı görsən, ölüm xəbəri eşidərsən”. Belə ki, eldə ayaqqabı, başmaq və s. ayaq geyimləri darlıq və qəbir nişanəsi kimi yozulur. Odur ki, Azərbaycanda insanlar bir-birinə “ayaqqabın mübarəkdir”, “ayaqqabın təzə qalsın” deməzlər. Bunun əvəzində “darlığın düşmən başına” söylərlər. Dildəki “dost başa baxar, düşmən ayağa” deyimi də elə ayaqqabı ilə bağlı yaranmış ifadədir. Kiminsə gözünün nəzərli olduğundan şübhələnəndə də, onun ayaqqabısının sağ tayını xəlvətcə götürüb yandırırlar və inanırlar ki, bundan sonra guya o, kimsəni nəzərə gətirə bilməz.

Bir adamın öldüyünü bildirmək üçün vəfat edənin başdaşı üzərinə ayaqqabı, uzunboğaz çəkmə (uzunboğaz çəkmə ölənin uzun yol keçməsinə, səfərlərdə olmasına işarədir) təsvirləri həkk etmək adəti var imiş. Bu cür qəbirlərə, hətta indi də Abşeron qəbiristanlarında da rast gəlmək olur.

Dilimizdə işlənən “səni görüm qapından ayaqqabı əskik olmasın” qarğışında da tərəf-müqabilə ölüm arzusu ifadə olunub. Bu cür baxışlar, sözsüz ki, xatırlatdığımız sınamanın təşəkkülünə yol açmışdır.

Azərbaycan xalq məişətində atla əlaqədar yaranmış sınamalar da az deyil: “Yuxuda at görsən, murada çatarsan”, “atın gövşədiyini görən kimsə həmin anda nə arzu etsə, yerinə yetər”, “qapısına at nalı vurduran arzusuna qovuşar”, “at nalı tapıb saxlayanın işləri uğurlu olar”, “at olan yerə şər ruhlar gəlməz”, “quru at kəlləsi saxlanılan bağ-bostanda məhsul bədnəzərə gəlməz”, “atın göz yaşları uğursuzluq gətirər” və s.

Bu sınamalardan bəlli olur ki, şər ruhlarla vuruşda da at vasitə bilinmişdir. Hətta Günəş və Ay tutularkən də adamlar atın köməyinə arxalanmışlar. Görkəmli yazıçı Abdulla Şaiq yazır ki, Ay tutulanda arvadlar kəsilmiş atın quyruğunu uzun bir payanın ucuna bağlayıb, havada o tərəf-bu tərəfə yellədə-yellədə “kişə, kafir, kişə” - deyə-deyə haray-həşir salırlar.

Ata müsbət baxış atalar sözü və məsəllərimizdə də qorunmuşdur: “at yeriməklə, insan bilməklə”, “atın kəmini tutmayan, yolda piyada qalar”, “at ölər -meydan qalar, igid ölər - ad-san qalar”, “at igidin yaraşığıdır” və s.

Atın “Koroğlu” eposunda olduğu kimi, su ilə, dərya ilə əlaqəsi, hətta sudan törəməsi, Xızıra məxsus olması barədə də xəbərlər vardır. Bəllidir ki, əsatiri və mifik obraz olan Xızır baharla, yaşıllıqla, həmçinin yağışla və su ilə bağlıdır. Ovsun atla ilgili sınamalardan biri ilin son gecəsiylə əlaqədardır. Deyilənə görə at ildə bir kərə - köhnə ilin qurtarıb, təzə ilin başlandığı vaxt gövşəyir. Bu da, öz növbəsində, “atın gövşədiyini görən adam o anda nə arzu etsə, yerinə yetər” sınamasını yaratmışdır. Bununla bağlı bir əfsanədə deyilir: “Yoxsul ər-arvad ilin son gecəsi yekə bir daşı qucaqlarına alıb tövləyə gəlir və atın gövşəməsini gözləyirlər. Gecədən xeyli keçmiş at gövşəməyə başlayır. Bunu görən arvad əlini tez arxaya ataraq: “bu, qızıl olsun!” - deyir. Geri baxanda, görür ki, əri dönüb qızıl olub. Sən demə, o, əlini daş əvəzinə, ərinə vurubmuş. Amma arvad çoxbilən imiş. O, ərini gətirib gizləyir və bu sirri heç kəsə açmır. Uşaqlarına da deyir ki, atanız uzaq səfərə gedib. Lakin arvad çətinliyə düşür. Təkbaşına uşaqları dolandıra bilmir. Odur ki, ərinin çeçələ barmağını kəsib çörəkpulu eləyir. Gün keçir, ay dolanır, yenə ilin son gecəsi gəlib yetişir. Arvad qızıla dönmüş ərini gizlətdiyi yerdən götürüb tövləyə gətirir və atın gövşəməsini gözləyir. At gövşəyəndə: - bu, adam olsun, -deyərək əlini ərinə vurur. Bununla da qızıl yenidən adama çevrilir. Ancaq onun çeçələ barmağı olmur.

Atın yazla, su ilə, Xızırla bağlılığı sadalanan sınamalar üçün ilkin qaynaq olmuşdur. Olsun ki, “il at üstə gələrsə, bolluq olar” sınaması da elə bu görüşlərlə bağlıdır.

Xalq məişətində hadisələrin, bilavasitə yuxu ilə bağlı düşünülməsi sınanılmış üsuldur. Xalq yaradıcılığında yuxu, əsasən, ikili səciyyə daşıyır. Qəhrəman yuxuda gördüyü, daha doğrusu, ona buta verilmiş sevgisini kəndbəkənd, şəhərbəşəhər axtarır, uzun sərgüzəştlərdən sonra mətləbə qovuşur (“Qurban”, “Novruz”, “Səyyad və Səadət”, “Şahzadə Əbülfəz” və s. dastanlar). İkincisi isə, baş verəcək hadisə, fəlakət və faciənin öncə yuxuda görülməsidir (“Astiaq”, “Tomris” rəvayətləri, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” eposları və s.). Sınamaların da yuxu ilə bağlı olanları çoxdur: “yuxuda at minsən, murada çatarsan”, “yuxuda balıq görsən, il bolluq olar”, “yuxuda od yandırsan, xoşbəxtliyə qovuşarsan”, “yuxuda ev süpürsən özünə və yaxın adamlarına bədbəxtlik üz verər”, “yuxuda toy görsən, yas olar”, “yuxuda işıq söndürsən, bədbəxtlik olar”, “yuxuda dişin düşərsə, işin bəd gələr”, “yuxuda duz alsan, xeyirə çatarsan”, “yuxuda gülən bəd xəbər eşidər”, “yuxuda su görsən, işlərin uğurlu olar, “qorxulu yuxu görəndə oyanıb yastığını çevirsən, yuxu sınar”, “yuxunu suya danışsan, təsirdən düşər” və s.

> Xalq məişətində hadisələrin, bilavasitə yuxu ilə bağlı düşünülməsi sınanılmış üsuldur. Xalq yaradıcılığında yuxu, əsasən, ikili səciyyə daşıyır. Qəhrəman yuxuda gördüyü, daha doğrusu, ona buta verilmiş sevgisini kəndbəkənd, şəhərbəşəhər axtarır, uzun sərgüzəştlərdən sonra mətləbə qovuşur (“Qurban”, “Novruz”, “Səyyad və Səadət”, “Şahzadə Əbülfəz” və s. dastanlar).

Bu sınamaların hər birinin məxsusi yozumu vardır. Misal üçün, “yuxuda toy görsən, yas olar” sınamasından, bəlli olur ki, bu sınama doğrudan-doğruya real həyat hadisələri əsasında yaranıb. Qədim insanlar belə düşünüblər ki, evlənmədən, yəni cavan ölənin həyatı tamamlanmamışdır. Odur ki, onun dəfn mərasimi həmişə toy büsatı şəklində düzənlənmişdir. Mənbələrin verdiyi xəbərə görə, bəzi xalqlarda əgər cavan qız ölübsə, o, dəfn olunanda, rəfiqələrindən biri gəlinlik paltarı geyib dünyasını dəyişəni əvəz edir və bəylik paltarı geyindirilmiş subay oğlanla cənazənin önündə gedirlər. Yaxud igidliklə vuruşan döyüşçü ölümcül yaralandıqda, anasına xəbər göndəribmiş ki, oğlun nişanlandı, tezliklə evlənəcək. Ölən döyüşçü haqqında isə deyrlərmiş ki, o, yad ölkədə toy edib evləndi, daha yurda qayıda bilməyəcək.

Azərbaycanda cavan və ailə qurmamış ölən adamın dəfni vaxtilə toy mərasim ənənələri fonunda keçirilmişdir. Doğrudur, bu cür ayinlər tədricən aradan çıxsa da, öz iz və əlamətlərini qoruya bilmişdir. İndinin özündə belə, cavan ölənin tabutu yaşlılarınkından fərqli olaraq, əksər hallarda əlvan naxışlı, xüsusən, daha çox qırmızı rəngli parçalarla bəzədilir. Onun məclisi isə “qara toy” adlandırılır. Dəfn mərasiminin toya məxsus əlamətlərlə zənginləşdirilməsi, sözsüz, rəmzi səciyyə daşıyır. Bu, olsa-olsa, yuxunu real olmayan toy-dəfn mərasimi ilə bağlamanın nəticəsidir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 8 dekabr

## Leonardo da Vinçinin ən bahalı əsərinin alıcısı Səudiyyə Ərəbistanı şahzadəsidir

Leonardo Da Vinçinin Christie's hərracında 450 milyon dollara satılmış "Dünyanın xilaskarı" rəsminin adı açıqlanmayan alıcısı çox güman ki, Səudiyyə Ərəbistanının şahzadəsi Bader bin Abdullah bin Məhəmməd bin Farhan Əl-Səud olub. Bu barədə məlumatı New York Times qəzeti yayıb. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, varis şahzadə Məhəmməd bin Salmanın dostu olan 32 yaşlı Bader tullantıların təkrar emalı sahəsində biznesi idarə edir.

Bu arada "Luvr Abu Dabi" incəsənət muzeyi "Twitter" səhifəsində "Dünyanın xilaskarı" rəsmini öz ekspozisiyasında nümayiş etdirəcəyi barədə məlumat yerləşdirib.

Da Vinçinin buna qədər rusiyalı milyarder kolleksiyaçı Dimitri Rıbolovlevə məxsus əsəri hərraclarda satılan ən bahalı incəsənət nümunəsi olub. Təxminən 1500-cü illərə aid olan şedevr italiyalı rəssamın müasir dövrə qədər gəlib çatan 20-yə yaxın rəsm əsərindən biridir. Əsərin satış tarixi 1958-ci ildən - onun London hərracında 60 ABŞ dollarına satıldığı vaxtdan başlayır. O vaxt "Dünyanın xilaskarı" bu dahi rəssamın deyil, onun davamçılarından birinin yaradıcılığına aid edilirdi. O, 2005-ci ildə yenidən bazara çıxdı və da Vinçinin itmiş rəsm əsəri kimi böyük maraq doğurmağa başladı. 2013-cü ildə Rıbolovlev onu 127,5 milyon dollara fərdi qaydada satın aldı.

## Analar üçün enerji qida

"Ana" və "yorğunluq" əl-ələ gedən anlayışlardır. Ailənin qayğısını çəkən və məişət işləri ilə məşğul olan analar çox zaman özlərinə diqqət yetirməyi və qulluq etməyi unudurlar. Lakin unutmaq lazım deyil ki, "yıxılan evlərin dayağı" olan anaların əhval və səhhətindən bütün ev-əhlinin durumu asılıdır. Vəziyyəti düzəltmək üçün dəyərli analarımızı faydalı və enerji dolu qida məhsulları ilə tanış edirik.

Dəmirlə zəngin ərzaqlara əksər anaların böyük ehtiyacı olur. Qanda dəmir çatışmamazlığı yorğunluq hissi yaradır. Bütün analara xüsusən doğuşdan yenicə çıxanlara heyvan və bitki mənşəli dəmir qəbul etməyi tövsiyə olunur: dana əti və ciyəri, göyərtilər, paxlalılar. Bu ərzaqları turş meyvə və tərəvəzlərlə-bolqar bibəri, limon, laym, portağal, mandarin, qreypfrut, kivi, və s. ilə birlikdə yeməyi unutmayın, çünki vitamin C dəmirin bədən tərəfindən qəbul edilməsinə yardım edir.

Bundan əlavə vitamin C ilə zəngin şirə və smuzilər qəbulunu artırın. Mürəkkəb karbohidratlar digər zəngin enerji mənbəyidirlər. Çalışın az miqdarda qəbul etməklə sağlam alternativlərağ çörək əvəzinə kəpəkli, düyü əvəzinə isə qəhvəyi düyü seçəsiniz. Əlavə olaraq, buğda, yulaf, qəhvəyi düyü, kinoa, lobyalar, noxudlar, mərci və kartof, kök, çuğundur kimi nişastalı tərəvəzlər gün ərzində yorulmamağa əsas verəcəkdir.

Cərəzlər enerjivericilik qabiliyyəti ilə yanaşı analara hazırlanmasına vaxt və əziyyət tələb etməyən digər bir vasitədirlər. Lif, vitamin E və turş yağlarla zəngin olan qoz, fındıq, badam, fıstıq, günəbaxan tumu, kətan toxumu, küncüt, qara zirə toxumu anaların rasionundan əksik olmamalıdır.

Ağartılar kalsiumla zəngin olduqlarından anaların rasionu üçün əvəzedilməzdir. Analara qatıq, kücüt toxumları və parmezan pendirinin qəbulu məxsusi şəkildə tövsiyyə olunur.

Susuzlaşma insana yorğunluq gətirir. Kİfayət miqdarda su qəbul etmək həyati vacibdir xüsusən analar üçün. Suyun qəbulu bədənə bərpa olunmağa və oksigenlə zənginləşməyə yardım edir. Bu isə öz növbəsində yorğunluğun qarşısını alır.

"The Journal of Psychopharmacology" dərgisinin apardığı son araşdırmaya görə gündəlik az miqdarda tünd şokoladın qəbulu anaların sağlamlıq və əhvalı üçün önəmlidir.

## Çempionlar Liqasında 1/8 finalçılar müəyyənləşib



Futbol üzrə UEFA Çempionlar Liqasında qrup mərhələsinin oyunlarına yekun vurulub. Qol.az xəbər verir ki, keçirilən 8 oyundan sonra 1/8 finalın bütün iştirakçılarının adı məlum olub.

Beləliklə, "Mançester Yunayted", "Mançester Siti", "Tottenhem", "Çelsi", "Liverpul" (hamısı İngiltərə) "Real", "Barselona", "Sevilya" (İspaniya), "Şaxtyor" (Ukrayna), "Porto" (Portuqaliya), "Roma", "Yuventus" (İtaliya), "Beşiktaş" (Türkiyə), "Bazel" (İsveçrə), PSJ (Fransa), "Bavariya" (Almaniya) adını 1/8 finala yazdırıb. "Leypziq", "Borussiya" D.(Almaniya), "Napoli" (İtaliya), "Atletiko" (İspaniya), "Spartak" (Rusiya), "Sportinq" (Portuqaliya), MOİK (Rusiya), "Seltik" (Şotlandiya) isə qrup üçüncüsü olaraq Avropa Liqasının 1/16 finalına vəsiqə qazanıb. Qeyd edək ki, C qrupunda "Çelsi", "Atletiko" və "Roma" ilə mübarizə aparan "Qarabağ" 2 xal toplayıb və mübarizəni dayandırıb.

## Ronaldo yeni rekordundan danışdı



"Real"ın futbolçusu Kriştiano Ronaldo Çempionlar Liqasının qrup mərhələsinin sonuncu turunda "Borussiya"ya qalib gəldikləri oyunu (3:2) şərh edib. UEFA-nın saytına danışan portuqaliyalı hücumçu yeni rekorda imza atdığı matçla bağlı bunları bildirib: "Çox sevincliyəm. Qrup mərhələsini yaxşı sonluqla başa vurmaq istəyirdik və buna nail oldum. Qol vuraraq komandamın qələbə qazanmağına kömək etdim. Qol yaxşl alındı. Qrup mərhələsinin bütün oyunlarında qol vuran ilk oyunçu olduğum üçün şadam". Qeyd edək ki, K.Ronaldo "Borussiya"ilə görüşdə fərqlənərək ÇL-in qrup mərhələsi tarixində 6 oyunun hamısında rəqib qapısına yol tapan ilk futbolçu olub.

## "Tour d'Azerbaidjan-2018" veloturunun keçiriləcəyi vaxt məlum olub

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı "Tour d'Azerbaidjan-2018" veloturunun keçirilmə vaxtı müəyyənləşib. AZƏRTAC xəbər verir ki, gələn il mayın 9-13-də planetin ən güclü şose velosiped komandaları yenidən Azərbaycanda mübarizə aparacaqlar. Beş günlük yarış artıq Beynəlxalq Velosipedçilər İttifaqının 2018-ci il üçün müəyyənləşdirdiyi təqvim planına da daxil edilib. "Tour d'Azerbaidjan-2018" şose velosipedi üzrə gələn ilin mayında qəbul edəcəyimiz yeganə yarış olmayacaq - sözügedən veloturda iştirak etmək üçün Azərbaycana gələcək komandalar mayın 8-də birgünlük "Bakı-Xızı Eko" turunda da yarışacaqlar. Beynəlxalq Velosipedçilər İttifaqının kifayət qədər yüksək səviyyəli yarışı hesab edilən 1.1 kateqoriyalı velotur da artıq qurumun təqvim planında yer alır. Xatırladaq ki, şose velosipedi üzrə gələn ilin mayında keçiriləcək bu 2 yarışdan əlavə, iyunun 5-9-da Bakıda velosiped idmanının BMX növü üzrə (Olimpiya idman növü) dünya çempionatı da təşkil olunacaq.

## Lionel Messi Avropada ən məhsuldar futbolçu seçilib

Avropada geridə qalan mövsümün ən məhsuldar futbolçuları açıqlanıb. Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) rəsmi saytında yer alan xəbərə görə, futbolçuların yalnız ölkə çempionatında vurduqları qollar nəzərə alınıb. Sıyahıda 1-ci yeri "Barselona"nın lideri Lionel Messi tutub. O, buna La Liqada vurduğu 37 qolla nail olub. PSJ-nin hücumçusu Edinson Kavani 2-ci, "Sportinq"in qol "maşını" Bas Dost isə 3-cü yerdə qərarlaşıb. 2012 və 2013-cü illərdə də zirvədə qərarlaşan Lionel Messi bununla 3-cü dəfə qitənin ən çox qol vuran oyunçusu olub.

## "Roma" klubu Dieqo Perotti ilə müqaviləni yeniləyib




"Roma" futbol klubu yarımmüdafiəçisi Dieqo Perotti ilə müqaviləni yeniləyib. AZƏRTAC xəbər verir ki, 29 yaşlı xavbek ilə yeni müqavilə 2021-ci ilədək nəzərdə tutulub. Argentinalı futbolçu "Roma"ya 2015-2016-cı il mövsümündə "Cenoa"dan keçib. Yarımmüdafiəçi "Roma" klubunun heyətində 78 oyun keçirib və 17 qol vurub. Qeyd edək ki, Dieqo Perotti UEFA Çempionlar Liqasının qrup mərhələsinin sonuncu turunda "Qarabağ" ilə oyunda qələbə qolunun müəllifi olub.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə II kurs tələbəsi Orcuova Səbinə Fariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə II kurs tələbəsi Hümbətova Şəbnəm Nazim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə V kurs tələbəsi Fərzəliyeva Nərmin Elçin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*

Bəhruz Quliyev

*Baş redaktorun müavinləri:*

Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500